Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Zəmanəsinin fövqünə qalxmış–Nemanzadə

**Ömər Faiq Nemanzadənin 150 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün metodik vəsait**

**Bakı-2022**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar mədəniyyət işçisi**

**Zəmanəsinin fövqünə qalxmış yazıçı -** Ömər Faiq Nemanzadənin 150 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. A.Əliyeva ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 55 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

**Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur.

Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş "Qeyrət" mətbəəsinin və Yaxın Şərq ölkələri ədəbiyyatında demokratik meyillərin güclənməsinə qüvvətli təsir göstərmiş məşhur "Molla Nəsrəddin" jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. Ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan geniş erudisiyalı, fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparmışdır. Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir.

Dövrün vətənpərvər ruhlu bir çox şəxsiyyətləri kimi Ömər Faiq Nemanzadə də totalitar sovet rejiminin 1930-cu illər repressiyasının qurbanlarından olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan milli mətbuatının inkişafına dəyərli töhfələr vermiş görkəmli maarifçi-ziyalı Ömər Faiq Nemanzadənin anadan olmasının 150-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 oktyabr 2022-ci il

## İnsanlığın zənginliklərinə sahib olan şəxsiyyət

*Olanı danışıb, olanı desə,*
*Düşmən dost qəlbinə girə bilərmi,*
*Xəyanət cildini dəyişdirməsə*
*Cinayət hökmünü verə bilərmi?*

*Hüseyn Arif*

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bolşeviklər tərəfindən xaincəsinə devriləndə gələcəkdə onları nə gözləyəcəyi hələ bu zavallı xalqa məlum deyildi. Azərbaycan xalqını rus imperiyasının köləsinə çevrilən "sapı özümüzdən olan bolşeviklərin də ağlına belə gəlməzdi ki, nə vaxtsa "sadiq dostları" tərəfindən ağır işgəncələrə məruz qalıb, onlara da, "xalq düşməni" damğası vurulacaqlar.Çox gözləmək lazım gəlmir. İlk olaraq Xalq Cümhuriyyəti dövründə işləyən məsul şəxslər, var-dövləti əlindən alınmış insanlar və yeni hökumətə etiraz edən ziyalılar həbslərə atılıb güllələnirdilər.N.Nərimanov, Ə.Xanbudaqov kimi xalqın qeyrətli oğulları olmasa idi, kim bilir qətlə məruz qalmış 48 – minin əvəzinə nə qədər insanlar repressiya qurbanı olacaqdı. Onların bu müdaxiləsindən sonra bolşeviklər terrora bir müddət son qoymalı oldular. Lakin bu "sakitlik" çox da uzun çəkmədi. 30-cu illərin ortalarında Stalinin göstərişi ilə hər bir müttəfik respublikalarda "Üçlük", ("Troyka") yaradılır. Onlar heç kimə tabe olmadan respublikada hər cür özbaşınalığa yol verməkdən çəkinmirdilər. Bunun nəticəsi idi ki, onminlərlə günahsız insanlar məhz bu "Üçlüy" ün yaratdığı repressiyanın qurbanı oldu. "Üçlüy" ün qarşısına qoyduğu məqsəd, insanlar arasında təbliğat aparmaq, məktəblərin, ali təhsil ocaqlarının, müxtəlif idarə və təşkilatların rəhbərlərindən, quruluşdan narazı qalanları xüsusi hazırlanmış adamlar vasitəsi ilə "ifşa etmək", "danos" lar hazırlamaq, onlara qarşı hər cür

vasitədən istifadə üçün təcili tədbirlər görmək tələb olunurdu. Həmin təcili tədbirlər Ömər Faiq Nemanzadədən də yan keçmədi.

Azərbaycan xalqının ictimai şüurunun oyanmasında, inkişafında heç bir mətbuat orqanı “Molla Nəsrəddin” jurnalı kimi geniş təsir gücünə və əhəmiyyətli rola malik olmayıb. Bütün dövrlər üçün analoqu olmayan bu jurnal fəaliyyət göstərdiyi 26 il ərzində bir çox qələm sahiblərinin tanınmasına, sözlərini deyə bilməsində böyük rol oynayıb. 1906-cı ildən 1932-ci ilə qədər fəaliyyət göstərən jurnalın 1912-ci ilə kimi rəsmi redaktoru Cəlil Məmmədquluzadə, qeyri-rəsmi redaktoru, “sahibi-ixtiyari” Ömər Faiq Nemanzadə idi. Cəlil Məmmədquluzadə yazırdı: “Molla Nəsrəddin” bir neçə mənim əziz yoldaşımın qələminin məcmusudur ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam.

Jurnalın ilk 6 ili Ömər Faiq Nemanzadənin adı ilə bağlıdır. O, “Molla Nəsrəddin” in yaradıcılığından və onun istiqamətini, məzmununu müəyyən edən iki əsas simadan biri idi. Mirzə Cəlilin məslək yoldaşı, əvəzsiz köməkçisi və sədaqətli cəbhədaşı Ömər Faiq Nemanzadəni bu gün xatırlamağımızın səbəbi milli mətbuatımızın beşiyi olan onun təvəllüdü ilə əlaqədardır. 1872-ci ilin ılıq bir yaz günündə Gürcüstanın keçmiş Axalsix qəzasının Azqur kəndində Neman adlı ortabab bir kəndli ailəsində dünyaya gələn Ömər hələ uşaqlıqdan dini elmlərə deyil, dünyəvi elmlərə meyl göstərir və ömrünün son anınadək də bu əqidəsindən, amalından əl çəkmir.

Ədəbiyyatımızda özünəməxsus yeri olan Azərbaycan ədəbiyyatının öndər yazıçılarından biri olan Ömər Faiq Nemanzadənin bu il 150 illik yubileyi olur. Bu münasibətlə Respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi

nəzərdə tutulmuşdur. Biz də öz növbəmizdə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ***“Zəmanəsinin fövqünə qalxmış–Nemanzadə”*** adlanır və ədibin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır. II hissədə isə yubiley münasibətilə ilə kitabxanalarda keçiriləcək tədbirlər öz əksini tapır. Bu tədbirlər arasında sərgi mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr və onun fotoları nümayiş olunur. Sərgi başıqları aşağıdakılardan ibarətdir: “Azadlıq carçısı –Nemanzadə”, “XX əsrdə repressiyaya məruz qalanlar”, “Nakam həyat sahibi-Ömər Faiq Nemanzadə”, “Millət hurriyətin və istiqlalın ləzzətini yalnız öz milli dilində anlaya bilər”, “Xalqa həsr edilmiş həyat”, “Ömər Faiq yaradıcılığı”, “Ömər Faiqin həmişəyaşar “xatirələri” , “İnsanlığın zənginliklərinə sahib olan şəxsiyyət” və s.













## Həyatı

Ömər Faiq 1872-ci ilin 24 dekabrında Axalsıx qəzasının Azğur kəndində kəndli ailəsində anadan olmuşdur. O, bir neçə il molla məktəbinə getsə də, dinə maraq göstərməmiş və yenicə açılmış rus məktəbinə daxil olmuşdur. Atası onu Qori müəllimlər seminariyasına qoymaq istəyirdi, lakin dindar qadın olan anasının: "Mən oğlumu kafirlərin içərisinə buraxa bilmərəm" deyə etiraz etməsi buna mane olmuş və anasının təkidi ilə 1882-ci ildə İstanbula getmiş, "Fateh məktəbində təhsilini davam etdirmişdir. Təbiət elmlərinə həvəsi olduğuna görə sonradan "Darüş-şəfəq" məktəbinə daxil olmuşdur. 1891-ci ildə həmin məktəbi bitirdikdən sonra Qalata poçt və teleqraf idarəsində əmək fəaliyyətinə başlamışdır. O, burada qəzet və jurnallar vasitəsilə Avropadakı demokratik ruhlu türk mühacirlərinin əhval-ruhiyyəsi və türk inqilabçı şairlərin bədii yaradıcılığı ilə yaxından tanış olmuşdur. Bir müddətdən sonra sultan istibdadına qarşı gizli çalışan cavanlara qoşulmuşdur.

Öməq Faiq Nemanzadə Abidə xanımla ailə həyatı qurmuşdur. Onların üç qız və bir oğlan övladı olmuşdur. Oğlu Kamil və qızları Kamilə, Ədilə və Bəxtli. Qızlarının 3-ü də Azərbaycan Tibb İnstitutunda təhsil almışlar.

**Fəaliyyəti**

1894-cü ildə, Axısqada milli münasibətlərin kəskinləşməsi dövründə vətənə qayıtmışdır. İnqilabi dünyagörüşlü ziyalı kimi yetişmiş Ömər Faiq maarif və mədəniyyət sahəsində Azərbaycanın demokratik ruhlu vətənpərvər oğullarına qarışıb ömrünün axırına kimi biliyini və bacarığını xalqın azadlığı uğrunda mübarizəyə yönəltmişdir. Ömər Faiq 1894-cü ildə Şəkidə ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs demiş və İstanbuldan gətirdiyi açıq fikirli əsərləri xalqa paylayıb oxutmuşdur. O, burada M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli

şah” pyesini səhnə üçün hazırlamış, Müsyö Jordan rolunda özü çıxış etmişdir.

1896-cı ilin yazında xəstəliyi ilə əlaqədar Ömər Gəncəyə, oradan da Hacıkəndə getmiş, orada İstanbuldan gəlmiş Məhəmməd Əfəndi ilə yaxından tanış olmuşdur. Məhəmməd Əfəndi oradakı gənc müəllimlər və yazıçılara təsir etmişdir. Ömər Faiq 1896-1898-ci illərdə xəstəliyinə görə Abastumanda və Azğurda qalmışdır. Axısqada milli məktəb açmaq fikrinə düşən Ömər Tiflis maarif müdirinə ərizə yazıb – ondan: “Lazımsa, şkolada (məktəbdə) oxudun, ayrıca türk məktəbi olmaz” cavabını almışdır. Tiflisdən Müfti və Şeyxülislama şikayətlənib “Rusiyadakı türklərlə Türkiyədəki rum və ermənilər arasında hüquqca böyük bir fərq olduğunu” söyləmişdir. Ömər Faiq milli hüquqları müdafiə məqsədilə “hər millətin mədəniyyətə və maariflənməsinə haqqı vardır və bu haqqı hər yerdə, hər zaman saxlamalıdır” demişdir. Xəstəlikdən sağalıb O, 1898-ci ildən 1900-cü ilə kimi Şəkidə came məktəbində müəllim işləmişdir. Orada dini dərslərin tədrisini azaltmaqla hesab, coğrafiya, tarix və türk dili fənlərini tədris etdirmişdir. 1900-cü ildə Ömər Faiq ictimai həyatda fəal məşğul olmaq üçün Bakıya gəlmişdir. Bakı şəhərində milli məktəblərin yox dərəcəsində olduğunu, müsəlman xalqının acınacaqlı bir şəkildə yaşamasını görən Ömər Faiq demişdir: “Əgər Tağıyevin açdığı qız məktəbini görməsəydim, Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim” . Ömər Faiq 1900-cu ildə Şamaxıya gəlmişdir. O, burada milli məktəbin təşkil edilməsinə yaxından yardım etmiş və tarix, coğrafiya, hesab və türk dilindən dərs demişdir. 1902-ci il yanvarın 31-də Şamaxıdakı güclü zəlzələdən sonra Ömər Faiq Tiflisə getmişdir.

*Publisitik fəaliyyəti*

İlk kitablardan birini Ömər Faiq özü yazmış və 1905-ci il 2 aprel tarixində senzor komitəsində onun çapına icazə də almışdır. Bu əsər “Dəvəti-nəşri-asarə” adlansa da, ümumiyyətlə, ölkədə baş verən ictimai-siyasi hadisələrin təsiri altında yazılmışdır. Ömər Faiqin publisistik fəaliyyəti təkcə əməkdaşı olduğu “Şərqi-rus” qəzeti, “Molla Nəsrəddin” jurnalı ilə məhdudlaşmırdı. Dövrün ən nüfuzlu qəzet və jurnallarında onun imzası tez tez görünürdü. Ömər Faiqin publisistik fəaliyyətindəki əsas mənəvi-etik prinsiplərindən biri də vətənpərvərlik idi, vətənə, xalqa bağlılıq, xalqın mənəvi sərvətlərinə qayğılı münasibət idi. Ömər Faiq milləti sevməyin birinci əlamətini onun dilini sevməkdə görürdü, buna görə də milli dil problemi onun yaradıcılığında başlıca yer tuturdu. Ömər Faiq siyasi cəhətdən yetkin, mübariz bir publisist idi. O, bir çox siyasi toqquşmalarda şəxsən iştirak edir, siyasi təbliğat aparırdı.

Dəyərli yazar Ömər Faiq Nemanzadənin 150 illik yubileyi ilə əlaqədar kitabxanada **“Türk dili və Nemanzadə”** adlı *“dəyirmi masa”* keçirilməsi məqsədəuyğundur. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı Ömər Faiq Nemanzadənin yaradıcılığı haqqında qısa məlumat verir.

*Kitabxanaçı:* Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Abdulla bəy Əfəndizadə, Səməd ağa Ağamalıoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyov, Firudin bəy Köçərli kimi bu dövrdə türk dilinin təmizliyi və qorunması uğrunda mübarizə aparan ziyalılarımız arasında Ömər Faiq Nemanzadə xüsusi bir yerə sahibdir. O yazır: “Bir millətin yaşaması diliilədir. Dil yoxsa, Millət yoxdur. Mən inanmıram ki, dilini sevməyən millətini sevsin. Çünki dil millətin yeganə nişanıdır, millət sevgisinin birinci

əlamətidir”. Ömər Faiq Nemanzadənin əsərləri türk dilinin tarixi cəhətdən öyrənilməsi üçün çox əhəmiyyətli mənbədir. XX əsr Azərbaycan türklərinin siyasi tarixinin eyni zamanda, mədəniyyət və dil siyasətinin xarici ideoloji təsirlərin mərkəzində dayandığı bir dövrü əhatə edir. Bu dövrdə siyasi çəkişmələr, xarici siyasətlər türk dilinə də güclü bir şəkildə təsir göstərirdi. Bu da dövrün ən ciddi problemi kimi Azərbaycan-türk ziyalılarının bir çoxu kimi Ö.F.Nemanzadəni də düşünmək və türk dilini xarici təsirlərdən qorumaq məcburiyyətində qoyurdu. O, “Mədəniyyətmi, səfahətmi” məqaləsində yazırdı:

“*Dinəndə yandı dilim, dinməyəndə dil yandı,*
*Nə dərdi gizlədə bildim, nə aşikar elədim”.*

Danışmaqla iş düzəlməz. Biz elm və mərifət təhsili ilə hüsn-əxlaq sahibi olacağımız yerdə fəsad və əxlaqsızlığa bais olub qəbrimizi öz əlimizlə qazırıq.Bütün həyatını türkçülük ideologiyası üzərində inkişaf etdirən Ö.F.Nemanzadənin dil problemlərinə ciddi münasibəti təsadüfi hesab oluna bilməz. Çünki türk dili məsələsi XX əsrin siyasi proseslərinin başlıca problemlərindən biri idi. Ö.F.Nemanzadənin “Dilimiz yazımız”, “Dərdimiz və dərmanımız, “Eşq və məhəbbət”, “Milliləşmək”, “Gürcü siyasətçiləri” və bu kimi məqalələri elm, mədəniyyət və əlaqə dili olaraq türk dilinin tarixən müxtəlif xalqlar və millətlər arasında ortaq dil olduğunu sübut edir: “Türk dili dünyadakı asan və gözəl dillərdən biridir. Elə bu səbəbdəndir ki, bəzi millətlərin arasında ortaq dil Beynəlxalq Sosial Araşdırmalar jurnalı kimidir. Bir rum ilə ermənin türkcədən ayrı dil ilə danışdığını görməzsiniz”.

Dil məsələlərini bu dövrün zəruri milli məsələsi kimi gündəmdə saxlayan jurnal kimi yalnız üslubuna görə bir-birindən fərqlənən “Molla Nəsrəddin” və “Füyuzat” jurnalları başçılıq edirdi. “Molla Nəsrəddin” də “Sizi deyib

gəlmişəm, ey mənim o müsəlman qardaşlarım" sözləri ilə ana dilimizin çox yüksək milli dəyərlərini xalqın danışıq dilində qorumağı milli mədəniyyətimizin ən mühüm ideoloji-siyasi problemi kimi açıqlanır, "Füyuzat" da isə dilə münasibət məsələsi daha ciddi elmi-ədəbi səviyyədə qarşıya qoyulurdu. Bu ideologiyaların daşıyıcısı kimi Ömər Faiq yazılarının birində deyirdi: "Doğma dili, doğma ədəbiyyatı olmayan millət öz varlığından danışmağa utanmalıdır". Ömər Faiq Nemanzadə kimi bütün həyatını türkçülük ideologiyasına həsr eləmiş "Füyuzat" jurnalının redaktoru Əlibəy Hüseynzadə də rəsmi iclaslarda türk dili ilə bağlı müxtəlif mövzularda çıxışlar etmiş, türk dilinin Avropa dilləri ilə rəqabət edə biləcək səviyyədə dayandığını və onun qrammatik qanunları əsasında istənilən fikrin daha mükəmməl ifadə imkanları olduğunu göstərirdi. Ömər Faiq Nemanzadə türk dilinin tarixən qüdrətli bir dil kimi xalqlar arası ümumdil rolunu oynamaqla yanaşı, eyni zamanda xarici qonşu xalqların dillərinə də çox güclü şəkildə təsir göstərir. Türk dilinin ortaq dil kimi istifadə olunması və qorunması Ömər Faiq Nemanzadənin bütün əsərlərinin baş mövzusu olaraq diqqət çəkir.

"1893-1903-cü ilə kimi olan on ildə Axalsıxda, Şəkidə, Şamaxıda, Gəncədə, Bakıda və daha başqa yerlərdə olduğum vaxtlarda gördüyüm, eşitdiyim ictimai və siyasi yaraların acısı hələ ürəyimdən çıxmamışdı. Lakin iki-üç cür senzorun gözü qarşısında siyasi istibdaddan, hökümətin zülmündən açıq yazmaq çətin idi. Buna görə də, hələlik siyasi istibdadı pərdələyib ona yol verən rühani və dini isitibdadın əleyhinə yazmağı lazım bilirdim".

1905-ci ildə "Şərqi Rus" bağlandıqdan sonra Ömər Faiq, qələm dostu Cəlil Məmmədquluzadə ilə birlikdə qəzetin mətbəəsini alıb "Qeyrət" adı ilə dəyişdirdilər və burada

innovativ, dövrlə, zamanla hesablaşan kitablar nəşr etməyə başladılar. Bununla da Azərbaycan ədəbi-mədəni həyatında yeni bir mərhələ yaranır. Mollanəsrəddinçilər adı ilə məşhur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoyur.

*Növbəti iştirakçı  Ömər Faiq Nemanzadənin "Qeyrət" mətbəəsindəki fəaliyyəti" adlı çıxışına keçid alır.*

Gnome-searchtool.svg Əsas məqalə: Qeyrət mətbəəsi

Belə bir dövrdə "Şərqi-rus" qəzetinin bağlanması və onun mətbəəsinin satışa qoyulması Ömər Faiqlə Cəlil Məmmədquluzadənin birgə fəaliyyətinin yeni dövrünə yol açdı, onlar məhz "Rusiya inqilabı hərəkatından doğmuş bir inqilab yavrusu" (Ömər Faiq) olan "Molla Nəsrəddin" kimi jurnalı yaratmağa və dövrün əsas demokratik qüvvələrini onun ətrafına toplayıb, mövcud ictimai quruluşa qarşı atəş açmağa imkan əldə etdilər. Bu haqda Ömər Faiq xatirələrində yazır: "Çoxdan həsrətini çəkdiyim türk mətbəəsinin alverçilər əlinə düşüb dağılmasına heç bir surətdə razı olmamağımı, nə yolla olur olsun, onu saxlamaq gərəkliyini Mirzə Cəlilə dedim. Cəlil gülüb: "Çox əcəb, sözüm yox. Lakin Məhəmməd ağa söz yox ki, pul istəyəcək. O da ki, nə səndə, nə məndə. Bir də, Faiq, Məhəmməd ağa bilsə ki, mətbəə sənin əlinə keçəcəkdir, qorxuram bizə heç verməyə." Dedim: "Mənim adımı çəkmə sən. Məhəmməd ağanı bir az vaxt dayandır, pul tapacağına söz ver, qorxma!" Daha sonra Cəlil Məmmədquluzadə və Ömər Faiq mətbəədən gələcəkdə istifadə etmək niyyəti ilə bir qədər pulu olan üçüncü yoldaş axtarmağa başladılar. Belə bir adamı Ömər Faiq özü tapır. O zaman naxçıvanlı tacir Məşədi Ələsgər Bağırov Tiflisdə alış-verişlə məşğul olurdu. Ömər Faiq Məşədi Ələsgərdən bir qədər borc istəyir. Öməq Faiqə də xüsusi rəğbəti olan Ələsgər

Ömər Faiqə borc verir. Sonra da həm mətbəəni, həm də "Molla Nəsrəddin" jurnalının xərclərini öz öhdəsinə götürür. Yeni mətbəə "Qeyrət" adı ilə 1905-ci il mart ayında fəaliyyətə başlayır və hər üçünün — "Mirzə Cəlilin sahibi-imtiyazlığı, Ömər Faiqin müdirliyi, Bağırovun maddi yardımı ilə" 1907-ci ilə qədər davam edir. Bir qədər sonra onlar mətbəəni daha da genişləndirmək, istehsal gücünü daha da artırmaq fikrinə düşürlər.

"Qeyrət" mətbəəsinin ən böyük nailiyyəti "Molla Nəsrəddin" jurnalının nəşri idi. Ömər Faiqin yaradıcılığının ən cəsarətli, ən məhsuldar və təhlükəli dövrü bundan sonra başlayır.

*Kitabxanaçının dəyərli məlumatından sonra iştirakçılar öz çıxışına keçid alır. İştirakçının çıxışı* ***"Ömər Faiq Nemanzadənin Molla Nəsrəddin"*** *dəki fəaliyyəti adı altındadır.*

**Gnome-searchtool.svg Əsas məqalə: Molla Nəsrəddin (jurnal)**

Bir sıra maddi çətinliklərdən sonra 1906-cı ildə ilk dəfə "Molla Nəsrəddin" jurnalı nəşr edilmişdir. Jurnalın təsis edilməsində və onun nəşrində Cəlil Məmmədquluzadə və Ömər Faiqin müstəsna rolu olmuşdur. Həmin ilin aprel ayında onların birgə səyləri ilə "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi ortaya çıxdı. "Molla Nəsrəddin" də yalançı hürriyyətpərəstlərə qarşı yazdığı məqaləsində o deyirdi:

"Əgər hürr yaşamaq istəyiriksə, dəliqanlı cavanlarımızı qurban verməliyik. Qurban verdikdən sonra isə onları ağlamaqla, uzun yas saxlamaqla özümüzü taqətdən salmamalıyıq. Dübarə qurban verməməliyik, təki, hürriyyət xalqın qanı ilə qazandığı halal malı olsun. Əgər oturub gözləsək və başımızı boş danışıqlarla qarışdırsaq, dilimizdə hürriyyət sözü bitsə də, onun bəhrəsi olmayacaqdır.

O başqa bir məqaləsində isə belə yazırdı:
“Sən ey türk! Nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən! Sən gərək biləsən ki, dünyada hələ şiə, sünnü, babı, şeyxi adları yox ikən sən var idin... Ey özündən xəbərsiz türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu “yasaq” qanunları hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən sənin yurdunda var idi. Sənin öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaq hala salan ərəb əlifba və yazısından əvvəl sənin göyçək əlifba və yazın var idi.Bəsdir, bəsdir, ey türk! Bir az ayıl... Əl-ayağını bir az tərpət! Vücudunu, varlıq ağacını soran, korlayan tikanları, sarmaşıqları, yad ağacların yarpaqlarını, budaqlarını qır at, qurtul. Vücuduna günəş, hava dəysin! Başını bir az yuxarı qaldır, öz varlığının, öz vücudunun qiymətini bil! İndiyə qədər yadlar üçün, özgə varlıqlar, özgə vücudlar üçün özünü həlak etmisən. Barı bundan sonra da olsa, ayıl özünə gəl, öz gününə çalış!
“1911-ci ildə C.Məmmədquluzadə Tiflisə, jurnalın müvəqqəti redaktoru Məmmədəli Sidqiyə göndərdiyi məktubda yazmışdır: “Əzizim Məmmədəli!… Bunu sənə əvvəllər də istəyirdim yazım ki, Faiq Əfəndi bundan sonra oranın sahibi-ixtiyarıdır, hərtərəfli”.
Növbəti iştirakçı ***“Ömər Faiq digər qəzet-jurnallarda”*** Nemanzadə haqqında fikirlərinə keçid alır.
Ömər Faiq təkcə "Molla Nəsrəddin" jurnalında deyil, eyni zamanda, o dövrdə çap edilən bir sıra qəzet və jurnallarda — “Açıq söz”, “Tərəqqi”, “İrşad”, “Həyat”, “Rəncbər”, “Əkinçi”, “Adıgün kolxozçusu”, “Kommunist”, “Qızıl bayraq”, “Bağban” və s. çıxış etmişdir. Yazıları Ömər Faiq Nemanzadə, Ümidvar, Ümid, Faiq Nemanzadə, Lağlağı, Mozalan və s. ad və təxəllüslərlə çıxmışdır. Ömər Faiqin dövrün bir sıra mühüm ictimai-siyasi məsələləri haqqında

müxtəlif mətbuat orqanlarındakı fəaliyyəti onu müasirlərinə yetkin qələm sahibi kimi tanıtmış və sevdirmişdir.

Ömər Faiq Axısqada erməni və gürcü dəstələrinin terror fəaliyyətini öz gözləri ilə görmüşdür. Onun bir sıra məqalələrindən aydın olur ki, Gürcüstanda səs salmış "Gürcü işi" adlı əməliyyatın başlanması ilə əlaqədar o, dərhal öz ictimai-siyasi fəaliyyətini dayandırmış, həmin vaxtdan Gəncəyə köçüb fəaliyyətə başlamış, qəzet və jurnallarda tez-tez məqalələrlə çıxış etmişdi. Ömər Faiqin ən fəal işlərindən biri 1917–1920-ci illərdə Axısqa bölgəsindəki fəaliyyəti olmuşdur. O, Cənub-Qərbi Qafqazda ilk müstəqil türk respublikası Axısqa hökuməti-müvəqqətəsinə hökumət rəisi seçilmişdir. Altı aydan sonra menşeviklər Gürcüstanı ələ keçirmiş və bu respublika ləğv olunmuşdur. Cənubi-Qərbi Qafqaz hökuməti yıxıldıqdan sonra o, Gürcüstan menşevik hökumətindən Axısqa və Axılkələk əyalətlərinə muxtariyyət tələb etməyə başladı. Lakin bu arzusu həyata keçmədi. Əvəzində menşeviklər tərəfindən üç dəfə həbs olunub Metex qalasına salındı, lakin xalqın tələbi ilə yenidən azadlığa buraxıldı.

Ömər Faiq 1920-ci ildə Gəncə Ziraət (kənd təsərrüfatı) Texnikumunun direktoru işləmişdir. O, 1920–1921-ci illərdə “Zəhmətkeşlərin gözü” jurnalının redaktoru, bir az sonra “Yeni fikir” redaksiya heyətinin üzvü seçilmişdir. Sonra Gürcüstanda müsəlman işləri üzrə komitənin sədri təyin edilmişdir. İnqilab illərində Ömər Faiq dəfələrlə həbs edilmişdir. O 1923-cü ildə Azərbaycana gəlmiş və 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə düzəlmişdir. O dövrdə dərsliklərin hazırlanmasına və onların çap edilməsinə yardım etmişdir.

1920-ci ilin axırlarında və 1921-ci ilin əvvəllərində Gürcüstan Demokratik Respublikası çətin günlərini

yaşayırdı. Gürcü komunistləri menşevik hakimiyyətini yıxmaq və Gürcüstanı sovetləşdirmək üçün ölkə daxilində və onun hüdudlarından kənarda, xüsusən Bakı və Şimali Qafqazda geniş fəaliyyət göstərir, inqilabi situasiyanın tam yetişməsini gözləyirdilər. Belə bir vəziyyət 1921-ci ilin fevral ayında yarandı. Həmin günlərdə ölkənin bir çox yerini inqilab dalğası bürümüş, Borçalı, Quriya, Minqreliya, Acarıstan kəndliləri ayağa qaldırılmışdı. Üsyana qalxmış xalqa rəhbərlik etmək üçün fevralın 16-da Gürcüstan İnqilab Komitəsi yaradıldı. Komitəyə aşağıda adları göstərilən on nəfər tanınmış və nüfuzlu adam daxil edildi.

Azərbaycan ədəbiyyatının qüdrətli yaradacılarından biri - Ömər Faiq Nemanzadənin yubileyi ilə keçirilən təbdirlərdən biri də **"Yeni həyatın tərənnümçüsü"** adlı oxucularla söhbətdir.

Kitabxanaçı tədbir iştirakçılarını salamladıqdan sonra ədib haqqında məlumat verir. Tədbirə dəvət almış xüsusi qonaqlar Ömər Faiq Nemanzadənin ömür yolu və onun məsuldar yaradıcılığından söhbət açır. Bundan sonra F. Köçərli adına kitabxananın metodisti tədbirdə iştirak edən məktəbliləri Ömər Faiq Nemanzadənin sevilən əsərlərindən **"Nemanzadə şəxsiyyəti"** adlı əsəri ilə tanış edir.

*Kitabxanaçı:* Ömər Faiq Nemanzadə, 1906–1917-ci illərdə Bakıda jurnalist-yazıçı və müəllim işləmiş, müxtəlif mövzularda qələmə aldığı məqalələrdə milləti düşündürən, həyəcanlandıran problemlərə təmas etmişdir. 1917-ci ildə vətəni Axalsıxa dönərək buradakı türklərin milli mənafelərinin müdafiəçisi olmağı seçmişdir. Gürcüstan Respublikasının anti-türk siyasi şiddətinə qarşı çıxan Ömər Faiq 1918-ci ildə üç dəfə həbs olunmuş, Gürcü həbsxanalarının bütün zillətini yaşamışdı. 1918-ci ildə Tiflis həbsxanasında Ömər Faiqlə görüşən şair Əhməd Cavad

yazırdı: “Mən bu həkarəti yalnız Ömər Faiqə deyil, millətimə edilmiş hesab etdiyimdən Gürcü millətinin dostluğunu ürəyimdə saxlamaqla, Gürcü hökümətinə qələm dostlarım adından etiraz edirəm. Ömər Faiq təkçə Axalsixin deyil, bütün millətin xadimidir.” Həbsdən çıxdıqdan sonra Bakıya gələrək 1919-cu ildə Bakı Polis idarəsində çalışmış, 1920-ci ildə isə yenidən Gürcüstana qayıdaraq “Zəhmətkeşin Səsi” qəzetinin baş yazarı və Gürcüstan İnqilab Komitəsinin üzvü olmuşdur. Sovet dövründə də müəllimlik və dramaturgiya fəaliyyətini davam etdirmiş, dərs kitablarının hazırlanmasında daha fəal çalışmışdır. 1927-ci ildə pensiyaya çıxdıqdan sonra Ömər Faiq XX əsr Azərbaycan mədəniyyəti və mətbuat tarixi üçün son dərəcə əhəmiyyətli olan “Xatirələrim” üzərində çalışmışdır. Lakin müəllif bu xatirələri bitirə bilməmişdi. Öməq Faiq Nemanzadə 1937-ci ilin yayında Axalsıxda öz ata yurdunda dincələrkən iyulun 16-da rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs olunmuş və 3 ay sonra oktyabrın 10-da Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki “Üçlüyün” qərarı ilə güllələnmişdir. 1958-ci ildə Gürcüstan SSR Ali məhkəməsi ona bəraət vermişdir. Ömər Faiqin həyatının öyrənilməsinə və zəngin külliyyatının toplanaraq nəşr olunmasına ancaq 1980-ci illərin ortalarından sonra başlanmışdır.

## Ömər Faiq Nemanzadənin maarifçi görüşləri

Xalqın inkişaf səviyyəsini onun müəllimlərinin inkişafı müəyyənləşdirə bilər. Müəllim problemi ümumilikdə xalqın problemidir”.

*Ömər Faiq Nemanzadə*

Görkəmli ictimai-siyasi xadim, ədib, publisist, maarifpərvər ziyalı Ömər Faiq Nemanzadənin yaradıcılığı XX əsrin əvvəllərində yalnız xalqın həyat tarixçəsi deyil, həm də bu dövrə qədərki problemlərin məcmuyuna ümumi bir

baxışdır. Nemanzadənin yaradıcılığının incəlikləri həm də onu təsdiqləyir ki, o, ötüb keçənlərə deyil, dünəndən bu günə baxır. Böyük mütəfəkkir sanki dünəni bugünləşdirir, dünənə bu günün çalarlarını əlavə edərək sabaha aparır, əbədiləşdirir. Ömər Faiq Nemanzadənin məqalələri, felyetonları, xatirələri XX əsrin əvvəllərinin salnaməsini yaratmaqda, tarixini çatdırmaqda və yazmaqda əvəzsiz rol oynayır.

Demokratik-maarifçi ideyaların yayıldığı dövrdə öz xalqının mənəvi-mədəni cəhətdən oyanmasına can atan Ömər Faiq mətbuatın, məktəbin, elmin, təhsilin nadanlıq və cahilliyə qarşı mübarizəsini zəruri hesab edir və daha çox mətbəə və mətbuat üzərində dayanaraq yazırdı: "Bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan maarif və mətbuat olduğunu bilməliyik. Ən güclü top və tüfəngdən artıq bizi mühafizə edəcək mətbəə və mətbuatdır" deyir.

Ömər Faiq müəlliflik etdiyi mətbuat orqanları vasitəsilə fikirlərini, ideyalarını xalqa öz doğma dilində çatdırmağa çalışırdı. "Mətbuat dili olmayan bir millətin siyasi vücudiyyəti də olmaz" – deyən Nemanzadə yazır ki, mətbuat xalqın dərdini xalqa deməlidir, zəhmətkeşlərin ağır zəhməti hesabına yeyib yaşayanların mənəviyyat saflığını, mövcud ictimai quruluşun eybəcərliklərini açıb göstərə bilməlidir.

Abbas Zamanov Ömər Faiq haqda yazıb: "Əsrimizin ilk illərindən başlayaraq, Qafqazda və Azərbaycanda mətbuat səhifələrində zülmə və istibdada, cəhalət və mövhümata qarşı ölüm-dirim mübarizələri aparan inqilabçı-demokrat mühərrirlərin sırasında Ömər Faiqin özünəməxsus fəxri yeri vardır" .

Ö.F.Nemanzadənin əməkdaşlıq etdiyi "Şərqi-Rus" qəzetində, sonra isə Tiflisdə nəşr etdiyi "Qeyrət" mətbəsində, "Molla Nəsrəddin" jurnalındakı fəaliyyəti ilə yanaşı

müəllimlik peşəsini də əsas fəaliyyət növü hesab edibdir. Ömər Faiq xalqın savadlandırılmasını azadlıq yolunda, özünü dərk və milli oyanış yolunda müəllimliyi əsas şərtlərdən biri hesab edirdi. Yazırdı ki, xalqın savad və mədəniyyət dərəcəsi nə qədər yüksək olarsa, onun azadlıq və yaxşı həyat uğrunda mübarizəsi də o qədər səmərəli olar.

O, 1893-1903-cü illər arasında məktəblər təşkil edərək, Azərbaycanın Şəki, Şamaxı, Gəncə, həmçinin, Tiflis şəhərlərində müəllimlik etməyə başlayır. Belə bir iş o vaxtlar böyük fədakarlıq, mücahidlik, yaradıcı səy tələb edirdi. 1894 -cü ildə Şəkiyə gələrək yerli ziyaların köməyi ilə kiçik bir cəmiyyət təşkil edir. Cəmiyyətin yaradılmasında əsas məqsəd məktəblər açmaq, xalqın balalarını bu məktəbə cəlb etmək idi. Ömər Faiqin xatirələrindən aydın olur ki, uzun söz - söhbətlərdən sonra həmin cəmiyyət Qafqazda ilk Üsuli – Cədid üzrə milli bir türk məktəbi açıbdır.

Tarixən ənənəyə çevrilmiş "əti sənin, sümüyü mənim" valideyn "xeyir-duası"-nın bərəkətindən uşaq çox vaxt "ətdən və sümükdən" ibarət barsız ağaca çevrilirdi. Şəki məktəbinin gənc müəllimləri ilk gündən bu ənənəni qırmağa çalışırdılar. Ömər Faiq Nemanzadə təzə açdığı bu üsuli-cədid məktəbində ana dili, tarix, coğrafiya, hesab və imla dərslərini deyirdi ki, bunlar da yeni nəslin formalaşması üçün əsas fənlər idi. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan elmin tərəqqisində geridə qalırdı. Bunun bir səbəbi Rusiya imperiyasının düşünülmüş şəkildə apardığı milli müstəmləkə siyasətindən irəli gəlirdisə, digər səbəbi isə avam xalqın islam dininə kor-koranə baxışından irəli gəlirdi. Ömər Faiq də bunları görərək camaat arasında, mətbuat vasitəsilə geniş təbliğat işi aparır, elmin, maarifin əhəmiyyətini, mədəni yaşayış üstünlüyünü xalqa başa salır və qəflət yuxusundan oyatmağa çalışırdı.

Ö.F.Nemanzadə xalqın tərəqqisini müəllimlərin fəaliyyətində görürdü. O, belə qeyd edir ki, “millətin tərəqqi dərəcəsi müəllimlərin dərəcəsilə bilinər. Deməк ki, müəllimlər millətlərinin canlı “qradus” larıdır” . Müəllim körpə balalara vətənin hər daşını, qayasını, yarpağını, küləyini sevdiməklə yanaşı düşmənlərinə qarşı amansız nifrət hissi aşılaya bilər . Bu fikirlə bağlı Nemanzadə yazırdı: “Müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir, bir ovuc ingilislərin topsuz, tüfəngsiz dünyanın yarısına sahib olmaları, Misirdəki və ya Hindistandakı bir neçə piyan əsgərlərilə deyil, Londondakı müdir, alim, durbin və fədakar müəllimlərilədir. İşin iç üzünə baxmaq istəyənlərə məlumdur ki, rusları pərişan edən cahil rus generallarını basan yapon müəllimləri, yapon müəllim əsgərləri idi. Bilməm bir vaxt hansı qəzetdənsə oxudum: yapon davasından bir neçə il əvvəl, Yaponiyadakı rus səfiri bir bağa qonaqlıq verir. Qonaqlıq münasibətilə, o bağa gələn yapon ibtidai məktəb uşaqlarına da çay verirlər. Uşaqlar çayı içən arada xəbərdar olurlar ki, çay rus səfiri tərəfindən verilib, bunu duyan kimi uşaqlar: “Biz, bizə düşmən olanların çayını içmirik...” deyib çayları buraxırlar” .

Köhnə həyat və geriliyin kəskin tənqidi Ömər Faiq Nemanzadənin publisistikasında da geniş əks olunur. “Ömər Faiqin publisistik əsərləri üçün səciyyəvi olan ilk böyük keyfiyyət ideyalılıqdır, özü demişkən məsləkdir, məsləklərindən yaranan ideyalılıqdır. O, əqidəni, məsləyi yalnız yazıçılar, siyasət adamları, jurnalistlər üçün deyil, bütün vətəndaşlar üçün zəruri bir keyfiyyət hesab edir. Nemanzadə xalqın azadlığı, tərəqqisi, səadəti yolunda mübarizə etməyi bacaran adamları ideal dərəcədə sevir və çalışırdı ki, yeni nəsil bu cür tərbiyə olunsun, yəni məsləkli

və əqidəli olsun” . Maraqlıdır ki, Ömər Faiq Nemanzadə yüksək ideallardan və qayələrdən ehtikar edən boşboğazlarla həqiqi məsləkli mübarizələr arasında dərin fərq görürdü. Bu, əslində əxlaq məsələsidir. Heç şeyə inanmadan və ya nanəcib məqsədlərlə ortalığa atılanlar həmişə yüksək məfhumları oyuncağa çevirirlər, yəni əxlaqi normaları qəbul etmirlər. Belələri hər məsələ barədə əllaməlik etməyi, hər addımbaşı lovğalanmağı sevərlər, utanmadan şairə şeir, dramaturqa dram, bəstəkara opera yazmaq öyrədir, əslində isə hamısına mane olurlar. Onlar daha “yüksək tələblərlə” ortalığa atılsalar da əslində oradan-buradan sözlər əzbərləyib, hazır fikirlər və düsturlarla silahlanmış deletantlardır. Nemanzadə bu cür adamları boşboğaz adlandırıaraq göstərirdi ki, “Öz-özümüzə balta vurmağımızın təqsiri yalnız camaatımızda deyil, bəlkə beş-on manat məvacib-aylıq alan elmsiz, hünərsiz, başı sarıxlı qulluqçularımız ilə başı qaqaretli həmiyyətsiz qara qarğalarımızdadır. Bu kimilərin köhnə idarə istəmələrinə səbəb məhz özlərinin iki qəpiklik şəxsi mənfəətləri olduğunu camaatımız başa düşməlidir. Daha bəsdir, müftəxorlala, dinini, millətini iki qəpiklik xeyrə satanlara boyun əymək! Nə vaxta qədər ümumi və milli nəfimizi buraxıb bəzi sədrdə əyləşən, minbərə çıxan, qaqaret taxan həmiyyətsizlərin keflərinə qulluq edəcəyik. Biz də insanıq! Biz də bir millətik! Nə vaxta qədər xeyir və şərimizi qanmyacağıq?” .

Beləsinin işi-peşəsi nə olacaq? Bir adam ki, özü bacarıqsız ola, yaxud bacarığı olduğu halda düz yol tutmaya, onun-bunun və xüsusən iş görənlərin paxıllığını çəkə, onun işi nə olar? Sənəti nə olar?

Ömər Faiq sualı cavablandıraraq göstərirdi ki, “Hər kəs mənsub olduğu camaatın azadlığı və səadəti yolunda qanlar tökdükləri halda, bir baxın bizim camaat rəhbərləri nə cür cəfəng, müstəbid, zülmlü qərardadlar ilə camaatın

hüriyyətinə mane olmaq istəyirlər? İnsan yanıb-yaxılır ki, rəhbərlərimiz "yadullahü məəlcəmaətə" (Allahın əli camaatladır – H.H.) hikmətini bizə minlərcə əlavələr ilə anladıb camaat qüvvətinin hər cür müvəqqəti-cəbbaranə, zalimanə qüvvətlərdən artıq və daimi olduğunu bildirəcəkləri yerinə, məqami-rəyasətdən bizə misginanə vəz edirlər" . Belə fitnə-karlara müəllifin qəzəbi o qədər böyükdür ki, hətta onlara qarşı "ağızlarını açan kimi ağızlarında vurmaq" kimi amansızlıq dərəcəsinə çatan tədbirlər irəli sürür. O yazırdı: "Camaatımızın, yəni yaxşı ilə pis barəsində dürüst etiqadı olan camaatımızın borcu odur ki, həmin müzürr boşboğazları tapıb, ağızlarını açan kimi ağızlarına vursun, onlara yol verməsin, qudurtmasın və bu yol ilə onların bazarını kasad edib, meydandan çıxartsın, qovsun, amma bunun üçün yaxşıya və yamana etiqad lazımdır ki, boş-boğazların fikri həmin dəm aşkar olsun".

Ömər Faiq Nemanzadə bu tip yazılarında incə və maraqlı bir məsələyə də toxunur. O da işi bilənə tapşırmaq məsələsidir. Bəzi insanlar xeyir vermək istədikləri yerdə, yəni niyyətləri yaxşılıq olduğu halda işdə, əməldə zərər verir, pislik edirlər. Bu o zaman olur ki, başa düşmədikləri, qətiyyən xəbərdar olmadıqları işdən yapışırlar. Məlumdur ki, elə sahələr və sənətlər var ki, onlar hər bir adamdan müəyyən hazırlıq, müəyyən əqli inkişaf və professional səviyyə tələb edir. Məsələn, arabaçıya maşın sürməyi, qəssaba həkimliyi tapşırmaq olmaz, bunun üçün hər adamdan mütləq müəyyən hazırlıq tələb olunur. Naşı, hazırlıqsız, savadsız, elmsiz adamlar ixtisas və fikri səviyyə istəyən məsələlərin həllinə girişsə, bu məsələlərin taleyi elələrindən asılı olsa – qarma-qarışıqlıqdan başqa bir vəziyyət yarana bilməz. Bunu nəzərə ala-raq Ömər Faiq yazır: "Zəmanəmizin ehtiyac gördüyü məsələlərdən... məcmuələr yazıb "Molla Nəsrəddin" və ya

“Qeyrət” mətbəəsi idarəsinə göndərsinlər. Biz hər kəsin kitabını öz xərcimiz ilə çap edib nəşr edirik” .

Ömər Faiq Nemanzadənin müəllimlik və maarifçilik təcrübəsinin təbii məntiqi nəticəsi olaraq müsəlman dünyasında “Molla Nəsrəddin” jurnalının nəşri və fəaliyyətində misilsiz rolu olubdur. O, 1906-cı ildən 1917-ci ilə qədər “Molla Nəsrəddin” jurnalının məsul katibi vəzifəsində çalışmışdır. Cəlil Məmmədquluzadənin özü Faiq əfəndinin bu sahədəki xidmətlərini həmişə ehtiramla xatırlayırdı .

Göründüyü kimi, Ömər Faiq Nemanzadə xalq kütlələri içərisində maarif və mədəniyyətin yayılması üçün geniş təbliğat işi aparıb, elmin, təhsilin böyük əhəmiyyətindən danışmış, bununla əlaqədar “Molla Nəsrəddin” jurnalında və başqa mətbuat səhifələrində müntəzəm çıxış edib, elm və mədəniyyət naminə görülən bütün tədbirlərin həyata keçiilməsində fəal çalışıbdır.

Yekun olaraq qeyd edək ki, mollanəsrəddinçi Ömər Faiq Nemanzadə Azərbaycan məktəb və pedaqoji fikrin inkişafı tarixində mühüm yer tutan, onun inkişafı yolunda silinməz iz buraxan, çoxşaxəli tarixi xidmətləri ilə metodik fikri irəli aparan şəxsiyyətlərdən olubdur. Onun müəllimlik fəaliyyətində, məktub və publisist yazılarında ana dili haqqında fikirləri və s. kimi ümumi pedaqoji istiqamətlər gələcəkdə də öyrənilməyə layiqdir.

Ömər Faiq Nemanzadə 150 illik yubileyi ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də konfransdır. **“Dahi şəxsiyyət Ömər Faiq Nemanzadə”** başlıqlı *konfransda* alimlər, dilçilər, ədəbiyyatşünaslar, tədqiqatçılar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edə bilərlər. Konfransda Ömər Faiq Nemanzadənin həyat və yaradıcılığı, keçdiyi şərəfli ömür yolu haqqında qonaqlara

geniş məlumat verilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri məruzəçi qismində çıxış edirlər.

**I məruzəçi:** Azərbaycan milli mətbuatının inkişafında mühüm xidmətləri olan ziyalılardan biri Ömər Faiq Nemanzadədir. Bizim mübarizə tariximizdə, xalqımızın ictimai və milli şüurunun oyanması və formalaşmasında onun xüsusi mövqeyi vardır. XX əsrin ilk günlərindən başlayaraq Azərbaycan xalqının milli dirçəlişi, aqzadlığı və xoşbəxtliyi uğrunda cəsarətlə mübarizə aparanlardan biri də o idi.

Dərin biliyə elmi dünya görüşünə, bütöv xarakterə malik olan Ömər Faiq Nemanzadə vətəni və xalqı üçün döyünən hərarətli bir qəlb sahibi idi. O xalqın xoşbəxtliyi üçün heç vaxt öz qüvvə və bacarığını əsirgəməmişdi. Buna görə də dövrün demokratik ziyalıları arasında böyük hörmət və nüfuz qazanmış Faiq əfəndinin adı uzun müddət dillərdən düşməmiş, hörmət və məhəbbətlə çəkilmişdir. Yalnız onu qeyd etmək kifayətdir ki, Ömər Faiq "mollanəsrəddinçilər" adı ilə məşhur olan fikir cərəyanının ideya rəhbəri Cəlil Mənmmədquluzadəninm məslək yoldaşı, əvəzsiz köməkçisi və ən sədaqətli cəbhədaşı olmuşdur.

Azərbaycan E. A-nın müxbir üzvü, dövlət mükafatı, laureatı şairi Bəxtiyar Vahabzadə onun ilk dəfə çap olunmuş "Seçilmiş əsərləri" ni oxuyandan sonra yazırdı: "Sətirlər arasında vətən və xalq üçün, onun taleyi üçün alışıb yanan bir ürək gördüm. Bu ürək Mirzə Cəlillərin, Sabirlərin, Hadilərin ürəyi ilə bir vurur. Hörmətli şairimizin fikrincə, Ömər Faiq "öz vətən sevgisindən doğulmuş bir mücahitdir, bir qəhrəmandır. Buna görə də bu sevgi onu zəmanəsinin fövqünə qaldırmış, o, ucalığı məhəbbət zirvəsindənmühitinə baxıb hər şeyi boyasız, olduğu kimi görmüş, onun öz ölçüsünə gəlməyən eybəcərlikləri inkar etmiş, gözəllik naminə qələm çalmışdır.

Bu qüdrətli qələm sahibi mübariz jurnalist, istedadlı publisist, alovlu tribun, ictimai xadim  və gözəl müəllim, kimi tanınmış və bu sahələrin hər birində zəngin irs yaratmışdır. Elə bir irs ki, "Yatmışları oyadır, xalqı xalqın özünə tanıdırdı".
Ömər Faiq Nemanzadənin adı çəkiləndə birinci növbədə "Molla Nəsrəddin"  jurnalı xəyalımıza gəlir.

**II məruzəçi**: *Ömər Faiq və "Molla nəsrəddin" jurnalı*

Müsəlman mətbuatının baş senzoru olan və 1906-1917-ci illər ərzində Tbilisidə Qafqaz Senzura komitəsində işləyən Mirzə Şərif Mirzəyevin fikrincə, Ömər Faiqin ictimai fəaliyyəti onun müasirləri tərəfdən layiqli dərəcədə dəyərləndirilməmişdir, lakin gələcək nəsil onun adını ehtiramla və qürurla anacaq. O yazırdı: "Məgər gələcək azad nəslin ilk rus inqilabından sonra, reallıqların ən acınacaqlı günlərində, bütün təhlükələrə baxmayaraq, böyük bir cəsarətlə inqilabçı ideyalarını təbliğ edən, soydaşlarını azadlığa, nura doğru səsləyən bir adamın adını anmaması mümkündürmü?" Bu fikir bu günə qədər ədalətli hesab olunur. Bu günki gündə Azərbaycan ictimaiyyətinin kütləvi süurunda "Molla Nəsrəddin" yalnız Cəlil Məmmədquluzadənin adı ilə əlaqələndirilir Lakin Azərbaycan mətbuatının tarixində, ələlxüsus "Molla Nəsrəddin" jurnalı və "Qeyrət" nəşriyyatının tarixlərində həqiqətən də maraqlı olan hər kəsə, aydın olacaq ki, bu, heçdə və tamamilə belə deyil. Əfsuslar olsun ki, Ömər Faiq Nemanzadənin Cəlil Məmmədquluzadə ilə yanaşı jurnalın təsisçisi, banisi və müəllifi kimi rolu son onillikdə o qədər silinmişdir ki, bir çox hallarda onun adı hətta jurnal ilə əlaqəli bir şəxs kimi də çəkilmir.

Ömər Faiq Neymanzadənin adı Sovet İttifaqı dağılana qədər qadağalı idi və yalnız artıq müstəqil Azərbaycanda arxivlərin, ilk növbədə, elmi dairələrə və daha sonra geniş

kütlələrə açılması ilə yeni tarix açılmağa başladı, yeddi onillik boyunca gizli qalmış bir çox faktlar və həyat tarixçələri məlum oldu. Güllələnmiş keçmiş "xalq düşmənlərinin", həmçinin Ömər Faiqin, 1956-cı ildə reabilitasiyasına baxmayaraq, Azərbaycanın ziyalılarının və elmi dairələrinin dərin qorxu ətaləti o qədər böyük idi ki, onun adı hələ də çəkilmirdi. Sovet dövrünün ideoloji doqmalarına sadiq alimlər və tədqiqatçılar Ömər Faiqin uyğunsuz dünya görüşü və ideallarından yan keçməyə üstünlük verirdilər. Və yalnız 80-ci illərin ortalarında bəzi ədəbiyyatşünaslar – həmin dövrün canlı şahidləri Ömər Faiqi xatırlamağa cürət edirlər. Ömər Faiq Neymanzadənin həqiqi ədəbi reabilitasiyasını ilk dəfə gənc alim – tədqiqatçı Şamil Qurbanov həyata keçirmişdir: "Təəssüflə qeyd etmək lazımdır ki, Ö. F. Nemanzadənin publisistik irsi hələ lazımınca öyrənilməmiş, xüsusən onun "Molla Nəsrəddin" jurnalı ilə bağlı fəaliyyəti, demək olar ki, tam açılmamışdır: imzalar ətraflı öyrənilməmişdir, ayrı-ayrı felyeton və məqalələrin əsl sahibi müəyyənləşdirilmədiyindən onların kimin qələmindən çıxdığı hələ ki, sirr olaraq qalmaqdadır. Ə. Mirəhmədovun haqlı olaraq dediyi kimi "vaxtı ilə Faiqin "Molla Nəsrəddin" tarixindəki mövqeyi, "Qeyrət"in təşkil və idarə edilməsindəki rolu yad edilmir və layiqincə qiymətləndirilmirdi; onun mühüm xidmətlərindən bir qismi dostu Məmmədquluzadənin adına yazılırdı". Tədqiqatçı-filosof F. Vahidov da bu fikirdədir ki, C. Məmmədquluzadəyə aid edilən "Zarafat", "Bir boçka su", "Bibiheybət ziyarətgahı" və s. Felyetonlar Ömər Faiqindir. Mərhum alim Muxtar Qasımov da C. Məmmədquluzadəyə isnad olunan bir sıra felyetonun Ömər Faiqə məxsusluğunu iddia edirdi. Hər halda bu məsələnin tam həlli gələcək tədqiqatçılarını gözləyir".

**III məruzəçi:** Müsəlman mətbuatının (1906-1917), həmçinin "Molla Nəsrəddin" jurnalının baş senzoru olan Mirzə Şərif Mirzəyev, Ömər Faiqin əməyini qiymətləndirərək, yazırdı: «İlk öncə o, Tiflisdə "Qeyrət" mətbəəsini yaradır, bütün avadanlıqla onu təmin edir və "Molla Nəsrəddin" satirik jurnalını nəşr edir. O, bütün enerjisini, istedadını və qüdrətini xalqına həsr etmiş, yorulmadan həm  naşir, həm də jurnalist kimi fəaliyyət göstərmişdi. Onun işlədiyi şəraitin ağırlığını anlamaq üçün 1906-1907-ci illər ərzində nəşr olunmuş "Molla Nəsrəddin" jurnalının nömrələrinə baxmaq kifayyətdir. Və yalnız bu halda anlamaq olar, hansı təhlükələrə bu inqilabi ideyalar fədakarı özünü ifşa edirdi".

Bundan sonra, 1919-cu ildə Mirzə Şərif Mirzəyev yazmışdır: 1906-1910 illər ərzində mən Ömər Faiqi daha yaxından tanıdım. Şərq dilləri üzrə senzor vəzifəsi səbəbiylə bütün qanuni və qanunsuz işlərini oxudum. O, qəsdən özünü təhlükəyə atırdı. O, yazırdı: "Məqsədə çatmaq ya ölmək". Nəşriyyatında o, azərbaycan dilində müxtəlif kitablar, xəbərlər, inqilabi xarakterli müraciətləri çap edirdi, bununla da həbs və ya sürgün olma təhlükəsini yaradırdı. Dövrün ən parlaq şəxsiyyəti, müasir Azərbaycan ədəbiyyatının təsisçisi və klassiki Cəlil Məmmədquluzadə ilə Ömər Faiqin tanışlığı 1903-cü ildə azərbaycan dilində nəşr olunan yeganə mətbuat orqanında, yəni "Şərqi-Rus" qəzetinin redaksiyasında baş tutmuşdur.1905-ci ildə "Şərqi-Rus" qəzeti müflis oldu və M.Şaxtaxtinskiy nəşriyyatı satmaq qərarına gəldi. O zaman Ömər Faiqin etibarsızlığı o qədər aşkar idi və hakimiyyət tərəfindən o qədər təsbit edilmişdi ki, onun Rusiya imperiyasının çap məhsulunun nəşrinə icazə almaq üçün heç bir şansı yox idi. "Şərqi-Rus" və nəşriyyatın satışa çıxarılması Ömər Faiqin və Cəlil Məmmədquluzadənin birgə işində yeni dövr açdı.

Bu haqda Ömər Faiq xatirələrində yazır: "Çoxdan həsrətini çəkdiyim türk mətbəəsinin alverçilər əlinə düşüb dağılmasına heç bir sürətdə razı olmamağımı, nə yolla olursa olsun, onu saxlamaq gərəkliyini Mirzə Cəlilə dedim. Cəlil gülüb: "Çox əcəb, sözüm yox. Lakin Məhəmməd ağa söz yox ki, pul istəyəcək. O da ki, nə səndə, nədəki məndə. Bir də, Faiq, Məhəmməd ağa bilsə ki, mətbəə sənin əlinə keçəcəkdir, qorxuram bizə hec verməyə. Dedim: "Mənim adımı çəkmə, sən Məhəmməd ağanı bir az vaxt dayandır, pul tapacağına söz ver, qorxma!" C. Məmmədquluzadə isə həmin günləri belə xatırlayır: "…biz mətbəəni ələ keçirmək, gələcəkdə ondan istifadə etmək niyyəti ilə başladıq elə bir üçüncü yoldaş axtarmağa ki, o bir qədər pula malik olsun".

Belə bir adamı Ömər Faiq özü tapır. Naxçıvanlı Məşədi Ələsgər Bağırov mətbəəni almaq üçün onlara borc pul verir, sonra da həm mətbəənin, həm də "Molla Nəsrəddin" jurnalının xərclərini öz öhdəsinə götürür. Yeni mətbəə "Qeyrət" adı ilə 1905-ci ilin mart ayında fəaliyyətə başlayır. Bununla da Azərbaycan ədəbi-mədəni həyatında yeni bir mərhələ açır. Mollanəsrəddinçilər adı ilə məhşur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoyur. İlk kitablardan birini Ömər Faiqin özü yazmış və 1905-ci il aprelin 2-də senzor komitəsindən onun çapına icazə də almışdır. "Nəşri-asara dəvət" adlanan bu kitab tezliklə çap olunub camaata pulsuz paylandı.

"Qeyrət" mətbəəsi geniş fəaliyyətə başlayandan sonra Ömər Faiq Cəlil Məmmədquluzadə ilə birlikdə yeni mətbuat orqanı yaratmaq fikrinə düşmüş və əvvəlcə "Torpaq" adlı jurnal çıxartmaq üçün hökümətə müraciət etdi. Ömər Faiq yazır ki, "jurnalın müdirliyi və baş mühərrirliyi Mirzə Cəlilin arzusu və tələbi ilə mənim öhdəmə qoyuldu". Lakin, Baş mətbuat idarəsi Ömər Faiqin Türkiyədə təhsil aldığını bəhanə

edib jurnalın nəşrinə icazə vermədi. Bir az sonra C. Məmmədquluzadənin çap etmək istədiyi “Novruz” adlı qəzet də baş tutmadı. Nəhayət, hər iki dost 1906-cı ildə məşhur “Molla Nəsrəddin” jurnalının nəşrinə nail oldu. Rəsmi redaktoru Cəlil Məmmədquluzadə, əsas yazanı isə Ömər Faiq idi. Omar Faiq jurnalın inzibati və maliyyə məsələlərini də idarə edirdi. Bundan sonra Ömər Faiqin publisistik fəaliyyətinin çiçəklənmə dövrü başlayır. O, redaksiyada Mirzə Cəlilin əvəzsiz köməkçisinə çevrilir. Respublika Əlyazmaqları institutunda Ömər Faiqin “Molla Nəsrəddin” jurnalı nədir?” adlı xatirəsi saxlanılır. Burada jurnalın yaranması, məqsədi, fəaliyyəti, mübarizəsi şərh olunur. Amma iki məsələ xüsusilə qeyd edilir ki, nədənsə indiyə qədər tədqiqatçılar ona əhəmiyyət verməmişlər. Bunun biri jurnalın adı ilə, ikinci redaksiyada vəzifə bölgüsü ilə bağlıdır. Bunların hər ikisi jurnalın fəaliyyəti və müvəffəqiyyəti üçün vacib məsələ idi. Ömər Faiqin sözləri ilə desək, “adın özü də bir reklam, bir dəlildir”. Hər iki əməl dostu ad üstündə çox düşünmüş, “bir çox adlar sadalanıb tullandıqdan sonra “Molla Nəsrəddin” dayanılmışdır. Çünki Ömər Faiqin fikrincə, “Molla Nəsrəddin” deyəndə “oxucu düşünə bilər ki, onda gülməli hekayələr, əyləncəli söhbətlər, ibrətli sözlər var”.

Daha bir məsələ: Ömər Faiq yazır ki, onlar jurnalın planını müəyyənləşdirərkən onun “mütləq şəkilli olmasına” fikir vermək qərarına gəlmişlər. Çünki, yenə də onun fikrincə, xalq öz düşmənlərinin “canlı sürətdə, gülməli şəkildə” məsxərəyə alındığını, ifşa edildiyini görəndə sevinəcək, “Molla Nəsrəddin”in simasında öz himayəçisini görəcəkdir. Belə də oldu. Ömər Faiqin həmin xatirəsində oxuyuruq: “Jurnala olan rəğbət ancaq və ancaq geniş kütlə

tərəfindən idi. Bəylərdən, dövlətlilərdən, ruhanilərdən ətək-ətək söyüş, lənət və hədə kağızları alırdıq. Jurnala yuxarıdakı təbəqədən lənət, nifrət yağır, əməkçi deyilən aşağı təbəqədən isə hörmət qalxırdı. Birinin incidiyi, qəmləndiyi nisbətdə o birinin sevincini artırırdı. Göstərilən rəğbət inqilabın için-için qaynadığını, onun yaxında köpürüb daşacağını xəbər verən bir muştuluq yerində idi”.

“Molla Nəsrəddin” jurnalının birinci nömrəsinin bütün yükü, ağırlığı Mirzə Cəlillə Ömər Faiqin üzərinə düşmüşdü. Materialların hamısını özləri hazırlamış, şəkillərin mövzularını özləri vermiş, teleqraf xəbərlərini, tapmacaları da bir yerdə tərtib etmişdilər. Birinci nömrədə “Atalar sözləri” bölməsində belə bir cümlə vardır: “At atla boğuşar, hökümətin işi rast gələr”. Ömər Faiq xatirələrində yazır ki: “Mən bu cümləni “İt itlə boğuşar, hökümətin işi rast gələr” sürətində yazmışdım. Mirzə Cəlil Şeytanbazar qoçularından ehtiyat edib, iti ata çevirməmi rica etdi”.Bu göstərir ki, materiallar diqqətlə ölçülüb-biçilir, hər ikisinin razılığı və iştirakı ilə hazırlanırdı.

İstər jurnalın bədii tərtibatında, istərsə də materialların seçilməsi və hazırlanmasında o, ikinci əsas sima idi. Ömər Faiqin Respublika Əlyazmaları institutunda saxlanılan arxivindəki jurnal komplektlərində bəzi karikaturaların üstündə onun öz xətti ilə “mənimdir” sözləri yazılmışdır.

Bir müddət sonra isə, XX-ci əsrin dahi xalq şairi Mirzə Ələkbər Sabiri və müasir Azərbaycan ədəbiyyatının təsisçisi və klassiki Cəlil Məmmədquluzadəni aktiv fəaliyyətə cəlb edir.

**IV məruzəçi:** Zamanla “Molla Nəsrəddin” satirik jurnalında istedadlı rəssam və publisistlərdən ibarət olan unikal kollektiv yarandı. Həmin dövrdə ictimaiyyətin, və o cümlədən onun savadsız hissəsinin sevincinə səbəb olan

O.Şmerlinq və D.Rotterin karikaturaları, hələ də mənzərəli dilin sənətkarlığı və rəngarəngliyi ilə təəccübləndirir. Məlumdur ki, karikaturalar əsasən O.Şmerlinq və D.Rotter tərəfindən çəkilirdi. Lakin, həmin karikaturaların ideyavericiləri C.Məmmədquluzadə ilə Ö.F.Nemanzadə idi. Ömər Faiq xatirələrində qeyd edir: "Molla Nəsrəddin" jurnalında öz ictimai həyatımıza dair çəkilən şəkillərin çoxu karikatura, yəni uydurma, bənzətmə şəkil deyil, vaqiyənin, şəxslərin, tiplərin özü, bayağı fotoqrafıdır".

Bir çox karikaturlar əsasən felyeton ideyalarından yaranırdı. Ömər Faiq dini xurafatı və onun xalq arasında yayılmasını tənqid edərkən, maariflənmənin yalnız dini təlimlə məhdudlaşdırılmasının insanı aləmi dünya elmləri və sadə əxlaq normaları vasitəsilə dərk etməsi imkanlarından məhrum etdiyi fikrini oxucunun nəzərinə son dərəcə dəqiq şəkildə çatdırırdı. O, ruhani məktəblərini bitirmiş adamların cəmiyyət üçün tamamilə yararsız olduğunu vurğulayırdı.

1906-cı ildə, Ömər Faiq "Dəvət və təvəqqe" məqaləsində "Qeyrət" mətbəəsinin məqsəd və vəzifələrini izah edərək, qələm yoldaşlarına müraciət edir: «Öz xalqına xidmət etmək və bu müqəddəs məqsədə qoşulmaq istəyən hər kəs yoxsul insanların ağır həyat şəraiti və istibdad hakimiyyəti haqqında məqalə yazsın və "Molla Nəsrəddin" və ya "Qeyrət" mətbəəsinə göndərsin".

**V məruzəçi:** Ömər Faiq oxuculara bu cür müraciət edir: Müsəlman qardaşlarımız, siz bizim bir ildən artıqdır Vətənimizin və xalqımızın müstəqilliyi ilə çiçəklənməsi uğrunda apardığımız mübarizənin canlı şahidlərisiniz. Eyni zamanda bir neçə dəfə sizdən dəstək də istəmişik. Lakin bu istiqamətdə atılan hər hansı qətiyyətli addımları görmədik. Məgər müsəlmanların birliyi bu şəkildə olmalıdır? Onun necə olmalı olduğunu bilmirsinizsə, müəllimlərinizdən

maraqlanın. Allahın hökmlərinə uyğun yaşayırsınızsa, bizə qoşulun. Düşmən buxovlarından qurtulun, gəlin əminamanlığımız uğrunda mübarizə edək. Övladlarımızı əziyyətlərdən xilas etmək, dövlət məmurları ilə və jandarmlar tərəfindən məruz qaldığımız təhqir və həqarətlərə son qoymaq üçün əlbir olmalıyıq. Bu sözlər barədə yaxşı-yaxşı düşünün. Bu dəfə, hazırkı rejimə son qoymaq və hökumət nümayəndələrini nəzarətə götürmək üçün biz müsəlmanlar Konstitusiyaya uyğun idarə üsulunun tətbiq olunmasını və şəffaf parlament seçkilərinin keçirilməsini tələb etməliyik. Şübhəsiz ki, siz də bu işdə bizə dəstək olub, bizə qoşulsanız, nəticələr özünü çox gözlətməyəcək… Bunu yalnız hazırkı idarə üsuluna son qoymaq, yəni parlament seçkilərinin keçirilməsi yolu ilə həyata keçirmək mümkündür. Biz də buna can atırıq. Bu müraciəti də sizə məhz bizimlə əlbir olmanız üçün yollayırıq. Tam aydınlıq üçün müraciətimizi sizə türk dilində göndəririk. Bu müraciətlə tanış olub, onu digər müsəlman qardaşlarla paylaşmayanlar xainlik etmiş və Allahın qəzəbinə tuş gəlmiş sayılacaq. Siz də bizim kimi mübarizə edin. Allah-Təala müsəlman qardaşlara yardımçı olur və ölkəsinin vətənpərvərlərinə dayaq durur.

Ömər Faiqin jurnalda bir sıra kəskin siyasi çıxışları hakim dairələrdə kin, qəzəb oyadırdısa, kütlə arasında, demokratik ziyalılar içərisində ona qarşı geniş rəğbət yaradırdı. 1907-ci ildə o, jurnalda dərc etdiyi karikaturalardan birində Sultan Əbdülhəmidi Avropa dövlətləri qarşısında meymun şəklində təsvir etdiyi üçün həbs olunmuş, lakin geniş xalq kütləsinin tələbi ilə iki aydan sonra azad edilmişdir.

1907-ci ildə jurnalın fəaliyyəti hökumət tərəfindən müvəqqəti dayandırıldığında, Ömər Faiq "İrşad" qəzetində aşağıdakıları yazmışdır: "Bu zavallılar "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə son qoymaqla, öz rüsvayçılıqlarını ört-

basdır edəcəklərinə inanırlar. Onlar sadəcə aramızda mollanəsrəddinçilərin artıq çox olduğundan xəbərsizdirlər. Bu gün "Molla Nəsrəddin" bağlansa da, sabah "Molla Xeyrəddin" açılacaq".

**VI məruzəçi:** Tədqiqatçı Şamil Qurbanovun sözlərinə görə, Nə öz sağlığında, nə də son vaxtlara qədər Ömər Faiqin əsərləri toplanıb kitab şəklində çap olunmamışdır. Yalnız bu sətirlərin müəllifi ilk dəfə onun publisistik irsinin çox cüzi bir hissəsini (1983) və xatirələrini (1985) çap etdirmişdir. Hazırda publisistin əsərlərinin əksəriyyəti böyük çətinlik hesabına da olsa, toplanmışdır. Buraya qəzet və jurnal məqalələrindən, ədəbi-bədii yazılardan, felyetonlardan əlavə ədibin əsərləri, arxiv materialları, bir sıra məruzələri də daxil edilmişdir.

Ömər Faiq 40-dan çox gizli imzalardan istifadə etmişdir. Bunların əksəriyyəti onun publisistik fəaliyyətinin ən geniş və sərbəst meydanı olan "Molla Nəsrəddin" səhifələrindədir. Lakin indiyə qədər onlar seçilmədiyindən bir hissəsi ya Cəlil Məmmədquluzadənin əsərlərinə daxil edilmiş, ya da müəllifi müəyyənləşdirilməmişdir. İndi tam inamla demək olar ki, məşhur "Erməni və müsəlman övrətləri", "Qafqaz Şeyxülislamına iki dənə açıq məktub" kimi çox əhəmiyyət və XX əsrin əvvəllərinə geniş ictimai rəy oyatmış yazırlar Ömər Faiqindir.

Ümumiyyətlə, mollanəsrəddinşünaslar nəzərə almalıdırlar ki, jurnalın ilk nömrələrində cəmi iki gizli imza olmuşdur: "Molla Nəsrəddin" və "Lağlağı". Onun birincisi C. Məmmədquluzadəyə, ikincisi Ömər Faiqə məxsusdur. Sonralar məslək dostlarının hər ikisi (ən çox Ömər Faiq) bu imzalardan istifadə etmişdir. O, xatirələrində yazır ki, "Derdimənd" imzaları ilə "Zövci-axər" və "Hicab məsələsi" başlıqları ilə məqalələr yazıb qadın azadlığını iddia və tələb

etdiyimdən ötrü Tiflisin axundları 1907-ci ildə ağzına qədər dolu Şah Abbas məscidində şəri-məhkəmə çağırıb məni mühakimə etmək istədilər”.Qurbanov davam edir: Həmin məqalələrin imzalarına gələndə isə, görünür, hafizəsi müəllifi aldatmışdır. Çünki jurnalı vərəqləyəndə aydın olur ki, məqalələrdən ancaq birincisi – “Xortdana məktub” göstərilən imza ilə, qalanları – “Hicab məsələsi və cavabımız”, “Bir neçə günlüyə” və s. “Molla Nəsrəddin” imzası ilə çap olunmuşdur. Deməli, Ömər Faiqin müxtəlif imzaları içərisində “Molla Nəsrəddin” də olmaya bilməzdi. Jurnal ilk 6 ildə onun geniş fəaliyyət meydanına çevrilmişdi; qələmi kəskinləşmiş, həvəsi artmış, bütün və hər cür geriliyə, mənfi adət və ənənələrə atəş açmağa başlamışdı. “Molla Nəsrəddin”ə qədər onun “Tərcüman”, “Şərqi-Rus” və digər mətbuat orqanlarında on illik zəngin publisist təcrübəsi vardır. Doğrudur, o zaman çap üçün o, başqalarından asılı idi, buna görə də çox sıxıntılar, məhdudiyyətlər görmüşdü. Azad, sərbəst, özünə aid mətbuat orqanın olmasını ehtirasla arzu edirdi.  Bununla belə, Ömər Faiq sözügedən qəzetdəki əməkdaşlığını xatırlayarkən, bunları yazırdı: «Məqalələrimiz rəsmi senzuradan əlavə, redaktorun da senzurasından keçirdi. Redaktor bizə hökumətin azərbaycanlılara qarşı kəskin və əzici münasibətindən və onları təhsil almaq hüququndan məhrum etməklə, cahillik içində yaşamağa sürüklədiklərindən bir kəlmə belə yazmağımıza icazə vermirdi. Daha sonra yazır:

Görürəm hamının başı şəxsi rifahına qarışıb. Hərə bir yolla – kimisi ibadət etməklə, kimisi ənənələrə riayət etməklə – hər kəs öz imkanları daxilinidə öz həyatının qurtuluşu ilə məşğuldur: mömin ibadəti ilə, ruhani ianə yığmaqla, ziyalı şəxsi maraqlarına qulluq etməklə, varlı isə sərvət toplamaqla, bir sözlə, hərə özünü, sırf öz canını qurtarmağa çalışır.

Bundan da hər bir millətdə mütləq mövcud olan ictimai rəyin bizdə tamamilə yox dərəcəsində olduğu qənaətinə gəlinir, bizdə hələ öz taleyimizi xalqın, millətin taleyinə bağlamaq şövqü yaranmayıb, biz hələ xalqın dərdinə öz dərdimizə acıdığımız kimi acımağı öyrənməmişik.

Azad, sərbəst, özünə aid mətbuat orqanlarını necə ehtirasla arzuladığını, "Molla Nəsrəddin"in ilk addımlarından nə qədər sevindiyini, onun üzərində necə əsdiyini xatirələrindən və başqa məqalələrindən hiss etmək çətin deyildir.

"Hələ arzularımın mindən birini yazmamışdım" deyən Ömər Faiq böyük həvəslə işə girişmiş və onun da arzularının çoxu "Molla Nəsrəddin" səhifələrində müxtəlif formalarda, karikatura və felyetonlarda öz əksini tapa bilmişdir. Əgər biz deyəndə ki, jurnalı əvvəllər ancaq iki nəfər hazırlayıb çap edirdi, onu da etiraf etməliyik ki, həmin iki nəfərdən biri olan və dövrün ən güclü publisisti hesab olunan Ömər Faiq də yəgin ki, orada bir yaradıcılıq işi görürdü.

Çox təəssüf ki, məlum səbəblər üzündən indiyə qədər Ömər Faiqin başqa fəaliyyət sahələri kimi, "Molla Nəsrəddin" dəki işi də açılmamışdır. Onun jurnalda çap olunan felyetonlarının və "xidmətlərinin bir qismi dostu C. Məmmədquluzadənin adına yazılırdı". Mövcudluğunun son mərhələsində, 1921-ci ildən sonra, jurnal sovet təbliğatının alətinə çevrildi, və o vaxt üçün Ömər Faiq bu yeni dəyişilmiş jurnalda artıq işləmirdi, çünki o, "satiranın" sovet variantında iştirakdan qəti surətdə imtina edirdi. Ömər Faiqin qızı Kamilə Neymanzadənin xatirələrinə əsasən, Ömər Faiq Cəlil Məmmədquluzadənin həyatının son günlərinə qədər onun yaxın dostu olaraq qalırdı. Məmmədquluzadə dərindən düşünmədən qərar verərək yeni olaraq gördüyü bir sovet satirik jurnalını buraxmağa başladı, lakin qısa müddətdə öz uzağıgörməzliyini və tələsikliyini anladı. Əvvəlcə

Məmmədquluzadə sadəcə jurnalın məzmununa etiraz etməyə başladı, daha sonra isə o, yeni satiranın mənasına qarşı prinsipial etirazlarını ifadə etdikdə və onu qəbul etmədikdə, onu kənara çəkərək bir daha narahat etməyəcəklərini izah etdilər. Bundan sonra o, heç nə imzalamırdı. Lakin jurnal onun redaktor imzası ilə buraxılmağa davam edirdi.

**VI məruzəçi:** Ömər Faiq öz vətənində tamamilə başqa dəyərlərin, başqa tərəqqinin, başqa mədəniyyətin, yeni sovet insanının bərqərar olmasının şahidi oldu. Əsrin əvvəlinin sosial ideyaları onun vətənində mütləq hakimiyyətin tanınmaz rejiminin, sovet təhkimçilik hüququnun bərqərar olması ilə nəticələndi.1932-ci ildə Bakıda o, öz dostu Cəlil Məmmədquluzadəni dəfn etdi, və yetkin illərini Gürcüstanda, Aqara kəndində səssizcə keçirdi. 1927-ci ildə təqaüdə çıxdıqdan sonra Ömər Faiq XX-ci əsr Azərbaycan mədəniyyəti və Qafqaz mətbuatının tarixi üçün olduqca əhəmiyyətli olan "Memuarlar" üzərində işləyirdi. Lakin müəllif öz işini başa çatdıra bilmədi. 16 iyul 1937-ci ildə Ömər Faiq Gürcüstanda, Axaltsıxda rayon prokuroru Odabaşyanın sərəncamı ilə Türkiyənin xeyrinə casusluqda ittiham üzrə həbs edildi. 3 aydan sonra, 10 oktyabrda o, Gürcüstan SSR-ın Daxili İşlər Komissarlığı yanında "Üçlüyün" qərarı ilə güllələndi. Yeddi il sonra, 1944-cü ilin payızında o vaxt üçün sağ qalmış minlərlə həmvətənlilərinin total deportasiyası keçirildi. Ömər Faiqin və onun xalqının həyatının faciəvi akkordu — onun türk xalqlarının mümkün təşəkkül və inkişaf yollarına ideoloji və siyasi baxışlarının doğruluğunun təsdiqidir.

Bu material professor Şamil Qurbanovun tədqiqatları və nəşr olunan əsərləri, orijinal mənbələr sayılan Ömər Faiq Nemanzadənin əsərlər və xatirələri, tarixçilər və

ədəbiyyatşünasların məqalələri, eləcə də şifahi, ailə və ictimai tarix həqiqətləri əsasında tərtib edilmişdir. Sayt yeni materiallarla tədricən və ardıcıl şəkildə yenilənəcək.
Ömər Faiq Nemanzadə (1872-1937). Türk xalqlarının milli şəxsiyyət, sosial formalaşma və mədəniyyət prosesləri üçün parlaq və başa düşülən bir katalizator idi.

"Tərcüman" qəzetinin 7 yanvar 1900-cu il tarixli ilk sayında 28 yaşlı gənc Ömər Faiq Nemanzadə "Axalsıxdan xatirələr" məqaləsində yazırdı: "Cənab mühərrir! Camaatımız çox rahatdır. Nə yeni məktəbimiz var, nə də əski! Camaatımız mərhəmətlidir. Sənət məktəbinin bir xeyli xərcini çəkib erməni, yəhudi və gürcü ətfalını məccani oxutdurur.Camaatımız qənaətlidir. Öküz və eşşək işlərindən qeyrilərə baxmazlar. Bu səbəblə uyezdlərimizdə bir müsəlman dəmirçisi, yemənçisi bulunmaz. Amma kiçik bir köydə, məsələn, Azqurda müsəlmanların parası ilə keçinən beş böyük meyxana, altı qəhvəxana var. Bu hesabca qırx min cana bir üsul-cədid məktəbi düşdüyü halda, iyirmi evə bir meyxana ilə iki qəhvəxana isabət edir. Maarifimiz də o dərəcədədir ki, dörd saatlıq yol olan Qori darülmüəllimində bizdən ancaq bir müsəlman var. Camaata rəhbər olacaq dövlətlilərimiz, bəylərimiz az deyil. Heyf ki, maarifə, millətə olan hümmətləri pək azdır. Bu səbəbdən camelərimiz viran, məktəblərimiz pərişan, halımız yamandır. Əgər hürr yaşamaq istəyiriksə, dəliqanlı cavanlarımızı qurban verməliyik. Qurban verdikdən sonra isə onları ağlamaqla, uzun yas saxlamaqla özümüzü taqətdən salmamalıyıq. Dübarə qurban verməməliyik, təki, hürriyyət xalqın qanı ilə qazandığı halal malı olsun. Əgər oturub gözləsək və başımızı boş danışıqlarla qarışdırsaq, dilimizdə hürriyyət sözü bitsə də, onun bəhrəsi olmayacaq".

Milli qeyrət nümunəsi olan bu məqalə gənc publisist və jurnalistin maarifçilik sahəsində atdığı böyük addımlarından biridir. O dövrdə xalqının maariflənməsi işinə can yandıran qüdrətli qələm adamı bunu elmdə, təhsildə, mətbuatın inkişafında görürdü.

O, başqa bir məqaləsində isə belə yazırdı: "Sən ey türk! Nə əqidədə, nə məsləkdə olursan-ol, həmişə türksən! Sən gərək biləsən ki, dünyada hələ şiə, sünni, babı, şeyxi adları yox ikən sən var idin... Ey özündən xəbərsiz türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu "yasaq" qanunları hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən, sənin yurdunda var idi. Sənin öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaq hala salan ərəb əlifba və yazısından əvvəl sənin göyçək əlifba və yazın var idi. Bəsdir, bəsdir, ey türk! Bir az ayıl... Əl-ayağını bir az tərpət! Vücudunu, varlıq ağacını soran, korlayan tikanları, sarmaşıqları, yad ağacların yarpaqlarını, budaqlarını qır at, qurtul. Vücuduna günəş, hava dəysin! Başını bir az yuxarı qaldır, öz varlığının, öz vücudunun qiymətini bil! İndiyə qədər yadlar üçün, özgə varlıqlar, özgə vücudlar üçün özünü həlak etmisən. Barı bundan sonra da olsa, ayıl, özünə gəl, öz gününə çalış!"

Mətbuat tarixçiləri qeyd edir ki, 1911-ci ildə C. Məmmədquluzadə Tiflisə, jurnalın müvvəqəti redaktoru Məmmədəli Sidqiyə göndərdiyi məktubda yazırdı: "Əzizim Məmmədəli! Bunu sənə əvvəllər də istəyirdim yazım ki, Faiq Əfəndi bundan sonra oranın sahibi-ixtiyarıdır, hərtərəfli". Ömər Faiq təkcə "Molla Nəsrəddin" jurnalında deyil, eyni zamanda, o dövrdə çap edilən bir sıra qəzet və jurnallarda ("Açıq söz", "Tərəqqi", "İrşad", "Həyat", "Rəncbər", "Adıgün kolxozçusu", "Kommunist", "Qızıl bayraq",

"Bağban" və s.) çıxış edib. Yazıları Ömər Faiq Nemanzadə, Ümidvar, Ümid, Faiq Nemanzadə, Lağlağı, Mozalan və s. ad və təxəllüslərlə çıxıb. Ömər Faiqin dövrün bir sıra mühüm ictimai-siyasi məsələləri haqqında müxtəlif mətbuat orqanlarındakı fəaliyyəti onu müasirlərinə yetkin qələm sahibi kimi tanıdır və sevdirir. Ömər Faiq Ahıskada erməni və gürcü dəstələrinin terror fəaliyyətini öz gözləri ilə görür. Onun bir sıra məqalələrindən aydın olur ki, Gürcüstanda səs salan "Gürcü işi" adlı əməliyyatın başlanması ilə əlaqədar o dərhal öz ictimai-siyasi fəaliyyətini dayandırır, həmin vaxtdan Gəncəyə köçüb fəaliyyətə başlayır, qəzet və jurnallarda tez-tez məqalələrlə çıxış edir. Ömər Faiqin ən fəal işlərindən biri 1917-1920-ci illərdə Ahıska (Axalsıx) bölgəsindəki fəaliyyəti olub. O, Cənub-Qərbi Qafqazda ilk müstəqil türk respublikası "Ahıska hökuməti-müvəqqətəsi" nə hökumət rəisi seçilib. Altı aydan sonra menşeviklər Gürcüstanı ələ keçirib və bu respublika ləğv olunub. "Cənubi-Qərbi Qafqaz hökuməti" yıxıldıqdan sonra o, Gürcüstan menşevik hökumətindən Ahıska və Ahılkələk əyalətlərinə muxtariyyət tələb etməyə başladı. Lakin bu arzusu həyata keçmədi. Əvəzində menşeviklər tərəfindən üç dəfə həbs olunub Metex qalasına salındı, lakin xalqın tələbi ilə yenidən azadlığa buraxıldı.

Onu da qeyd edək ki, Ömər Faiq 1920-ci ildə Gəncə Zəraət (kənd təsərrüfatı) Texnikumunun direktoru işləyib. O, 1920-1921-ci illərdə " jurnalının redaktoru, bir az sonra "Yeni fikir redaksiya heyətinin üzvü seçilir. Sonra Gürcüstanda müsəlman işləri üzrə komitənin sədri təyin edilir. İnqilab illərində Ömər Faiq dəfələrlə həbs edilir. O, 1923-cü ildə Azərbaycana gəlib və 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə düzəlib. O dövrdə dərsliklərin hazırlanmasına və onların çap edilməsinə yardım

edir. Ömər Faiq Nemanzadə 1937-ci ildə Stalin repressiyasının qurbanı olur.

Ömər Faiq Nemanzadə böyük “Mollanəsrəddin”çi kimi tanınır. Dövrünün fəal qələm adamlarından olan Ömər Faiq Mirzə Ələkbər Sabirin şeirinin də qəhrəmanı olub. M.Ə.Sabirin həm Çar Rusiyası, həm də Abdulhamit dövrünün Osmanlısı tərəfindən inqilabçı fikirlərinə görə təqib olunan Ömər Faiq Nemanzadəyə yazdığı şeiri:

Söyləmədimmi sənə rahat otur, heyfsən,
Çəkmə bu millət qəmin, çək özünə keyf sən.
Xana deyildir sənin, getməlisən, zəifsən,
Eyləmədin etina, qissə haman oldumu?
Şimdi sənə mən deyən mətləb hasil oldumu?
Faidə verməz dedim etdiyin əfqan sənə,
Halına yandıqların eyləməz ehsan sənə.
Məskən olur aqibət guşeyi-zindan sənə,
Guşeyi-zindan sənə iştə məkan oldumu?
Şimdi sənə mən deyən mətləb hasil oldumu?

Mətbuat tarixçiləri bildirir ki, XX əsr Azərbaycan publisistikasının inkişafında böyük xidmətləri olan şəxslərdən biri də görkəmli jurnalist, molla nəsrəddinçilərin ideya rəhbərlərindən biri, C.Məmmədquluzadənin yaxın dostu və məsləkdaşı Ömər Faiq Nemanzadə fəal ziyalı kimi ölkədə baş verən ictimai-siyasi və mədəni hadisələrin fəal iştirakçısı olub. Mətbuat tarixçiləri yazır ki, xalqın maariflənməsi və azadlığı uğrunda yorulmadan mübarizə aparan Ömər Faiq cəmiyyətdə gördüyü nadanlığı, savadsızlığı və ədalətsizlikləri qələmə alaraq müxtəlif ədəbi məcmuələrdə dərc etdirirdi. 1905-ci ildə isə Ö.F.Nemanzadə

Tiflisdə “Qeyrət” mətbəəsi açmağa nail olur. Adından göründüyü kimi, müəllif əqidəli, Vətən, millət təəssübü çəkən yurddaşlarını milli dirçəliş və milli birlik uğrunda qeyrət göstərməyə çağırırdı.
Tədqiqatçıların bildirdiyinə görə, Ömər Faiq Nemanzadə cəsarətli bir publisist kimi 1906-cı ildən 1917-ci ilə qədər "Molla Nəsrəddin" jurnalının məsul katibi olur. Professor Əziz Mirəhmədov Ömər Faiqin bu ədəbi məcmuələrdəki fəaliyyətini qiymətləndirərək yazırdı ki, gördüyü işin böyük əhəmiyyətini dərindən dərk etdiyi üçün Faiq bütün varlığını, bacarıq və qüvvəsini bu işə verirdi: “İstər “Qeyrət” in, istərsə də “Molla Nəsrəddin” in fəaliyyəti dövründə o, dostu Mirzə Cəlillə əl-ələ verib irticanın hücumlarını dəf edib, lazım gəldikdə hətta qaragüruhçularla açıq mübahisə və mübarizəyə də qoşulub. Faiq dostundan çevikliyi, yorulmazlığı, tez ünsiyyət bağlamaq xüsusiyyəti ilə də seçilirdi”.
Tədqiqatçılar qeyd edir ki, başqa molla nəsrəddinçilər kimi Ömər Faiq də təhqirlərə, təqiblərə, təhdidlərə və həbs olunmasına baxmayaraq, öz kəsərli qələmi ilə ictimai həyatda və xalqın maariflənməsində inamla mübarizə aparırdı. Ö.F.Nemanzadənin ədəbi yaradıcılığı geniş və çoxşaxəlidir: bura mətbəəçilik və redaktorluqdan tutmuş, müxtəlif ədəbi dərgilərdə şeir, hekayə, məqalə, felyeton və s. janrlarda yazıb yaratması və maarifçilik sahəsində apardığı işlər daxildir. Mətbuat tarixi ilə bağlı keçən yazılarımızda da qeyd edirdik ki, Ö.F.Nemanzadə “Şərqi-rus”, “Tərcüman”, “Molla Nəsrəddin”, “İrşad”, “Həyat”, “Açıq söz”, “Sərvəti-fünun” və s. ədəbi məcmuələrdə çap olunub. Bu məqalə və felyetonları o, 40-dan çox, o cümlədən “Heyrani”, “Məşrutəçi”, “Lağlağı”, “Ümidvar”, “Ümid” imzaları ilə çap etdirib. Tədqiqatçılar yazır ki, həyatda rastlaşdığı bütün

çətinliklərə baxmayaraq, bu vətənpərvər jurnalist xalqın xoşbəxt gələcəyinə ümidlə baxırdı. Bəllidir ki, dövrün qabaqcıl ziyalısı kimi o, öz xalqını dünyanın ən mədəni xalqları səviyyəsində görmək arzusu ilə yaşayır və nicat yolunu elmdə, təhsildə, xalqın maariflənməsində görürdü. Başqa millətlərin irəli getdiyi halda, o, "müsəlmanlarda bir tərpəniş" görmür, daxili bir təəssüf və narahatlıq hissi keçirərək yazırdı: “Qiyamətə qədərmi kor gəlib, kor gedəcəyiz? Qafil doğub, qafil öləcəyiz? Boynumuzdakı bu ağır cəhalət zəncirlərini, qəflət yüklərini məhşərə qədərmi sürükləyib götürəcəyiz?”

Ömər Faiq zəmanəsinin bütün insanlarını-şeyxülislamları, müftiləri, qazıları, mollaları, axundları, müəllimləri, qulluqçuları “geri qalan camaatın dərdinə qalmağa”, öz mənəvi suverenliyi uğrunda mübarizəyə çağırırdı. Özgə millətlər, dünya gündən-günə dəyişib inkişaf etdiyi halda mübariz publisist özünəməxsus daxili bir yanğı ilə yazırdı: “Əsil islamiyyətdən, zəmanənin təqazasından bixəbər yatırıq, halbuki, zaman dəyişir, dünya dəyişir, hər zərrə dəyişir. İnsaf və mürvətmidir ki, bizlər hər şeydən də dışarı olaq? Dəyişməli, biz də mütləq dünyəvi əməllərimizi, göz görə təhlükələrə, səfalətlərə sürükləyən köhnə adətlərimizi, cahilanə fikirlərimizi, əməllərimizi dəyişməliyik. Və illa özgələr bizləri bütün özgə yolda dəyişdirib yox edərlər”.

Maarif və mədəniyyəti inkişaf etdirməyin ən birinci şərtini o, kitab və qəzetlərdə-mətbuatda görürdü. Onun fikrincə, “hər millətin mədəniyyət və qüvvəti mətbəələrin sayı ilə mütənasibdir”.

Ömər Faiq məqalələrindən birində yazırdı: “Ay mənim sevgili məzlum millətim, vaxtdır oyanaq, vaxtdır iş görək”. Tədqiqatçılar yazır ki, Ö.F.Nemanzadənin publisistik

yaradıcılığında dil məsələlərinə həsr etdiyi məqalələri xüsusi yer tutur. Qeyd edilənə görə, o, mübariz bir mətbuat işçisi, vətənpərvər ziyalı kimi daim Azərbaycan dilinin təmizliyi keşiyində dayanıb və bu sahəyə aid bir sıra məqalələr yazıb çap etdirirdi. Tədqiqatçılar onu da yazır ki, Ömər Faiqə görə, milləti sevməyin birinci əlaməti onun dilini sevməkdir. Professor Şamil Qurbanov yazırdı: "Milli dil problemi onun yaradıcılığında başlıca yer tuturdu. Bu da təsadüfi deyildi. Çünki XX əsrin Azərbaycan ziyalılarının əsas mübarizə hədəflərindən biri də milli dilə xor baxan, ona biganə olanlar idi. Ana dilinə olan məhəbbətin ifadəsidir ki, Ömər Faiq yazırdı: "Dil yoxluğu millət yoxluğudur", "Mən inanmıram ki, dilini sevməyən xalqını sevsin", "Məhəbbətlərimizin ən üst qatına dil məhəbbətini çıxarmalıyıq" və s. "Yazımız, dilimiz", "İkinci il" imiz adlı məqaləsində müəllif dilimizin ahəng qanununu inkar edib, onu ərəb-fars qəlibinə salmaq istəyənlərə tutarlı cavab verirdi. Dilimizdə əsl öz sözlərimiz olduğu halda, alınma sözlərin işlədilməsinə öz etirazını bildirirdi: "Biz deyirik: çox heyflər olsun ki, dilimizin yarısını ərəb və fars sözləri ilə doldurub bizi dilsiz və bədbəxt etmişlər. Elm və mərifətin camaat arasında yayılmağına böyük əngəl olmuşlar. Dilimizi genişləndirərkən, qaşımızı qayırarkən gözümüzü çıxarmışlar".

"Eşq və məhəbbət" məqaləsində Ömər Faiq qeyd edir: "Dilimiz dünyadakı asan və gözəl dillərdən biridir".

Ana dilimiz haqqında belə dəyərli fikir söyləyən Ömər Faiq həm dil, həm millət, həm də mətbuat fədaisi olub.

İstedadlı ədib Ömər Faiq Nemanzadəni tanıtmaq və yad etmək məqsədilə keçirilə biləcək tədbirlərdən biri ədəbi-bədii gecədir. **“Hürriyyət və demokratiya insanı”** adlı *ədəbi-bədii gecə* keçirilən zalda Ömər Faiq Nemanzadənin rəsmləri, onun öz fikirləri və digər görkəmli şəxsiyyətlərin Nemanzadə haqqında söylədikləri kəlamlar yer alır. Gecədə şair və yazıçılar, sənət-söz adamları, alimlər və tarixçilər iştirak edirlər.

**I aparıcı:** Salam dəyərli qonaqlar. Biz buraya görkəmli alim, türkcü, tarixçi tədqiqatçılardan olan, belə demək olarsa, həyatını elmə, ədəbiyyata qurban verən Ömər Faiq Nemanzadənin 150 illik yubileyi münasibətilə yığışmışıq. Yalnız Azərbaycanın deyil, bütün Şərq-İslam dünyasının möhtəşəm şəxsiyyətlərindən biri olan Ömər Faiq Nemanzadənin həyat və yaradıcılıq yolu özünəməxsusluğu və bənzərsizliyi ilə seçilməkdədir. Sovet siyasi rejiminin qadağa və unutqanlıq siyasəti nəticəsində uzun illər adı və əsərləri yasaq olunan bu qeyri-adi istedad sahibinin Azərbaycanın dirçəlişi üçün edə bildikləri bir insanın cismani və mənəvi imkanlarından heyrətamiz dərəcə böyükdür. Təsadüfü deyil ki, onun nəhəngliyini təkcə dostları deyil, düşmənləri belə etiraf etməkdədirlər.

**II aparıcı:** Ömər Faiq keçdiyi çətin, mürəkkəb, keşməkeşli, şərəfli ömür yolunu və mübarizələrlə dolu yaradıcılıq prosesini özünün məşhur "Xatirələrim" əsərində geniş şəkildə əks etdirib. Bu dəyərli avtobioqrafik yazıda ədib öz yaradıcılığını, "Molla Nəsrəddin" jurnalı ilə bağlı qaragüruhçu qüvvələrə qarşı mübarizəsini, Cəlil Məmmədquluzadə ilə sıx dostluq əlaqələrini real faktlar əsasında qələmə alıb.

Məlumdur ki, erməni daşnakları zaman-zaman torpaq iddiaları ilə qanlı savaşlara yol açmış, xalqımızı rus şovinizminin əli ilə soyqırıma məruz qoymuşlar. “Molla Nəsrəddin” jurnalının bir əsr öncə öz səhifələrində çap etdirdiyi bu mövzulu yazılar gələcək nəsillərə ötürülmüş ciddi xəbərdarlıq idi. Ömər Faiq Nemanzadə “Millətpərəstlik zamanıdır” adlı məqaləsində yazırdı: “Ey ürəyində bir zərrə mərhəməti olanlar, ey insana dost və millətpərəst görünənlər! Məmləkətimizin, camaatımızın bir payı aclıqdan həlak olur. Bunların bu ciyərsiz həlakı isə bizi daha dəhşətli, daha təhlükəli həlakətə sürür. Əgər Zəngəzura, Qarabağa vaxtında kömək edə bilməsək, o əhəmiyyətli yerlər əlimizdən çıxarsa, yaxşı biliniz ki, cümləmiz qeyrət və namussuzluqla yad olunmaqdan savayı, bütün məmləkətlərimiz, bütün həyatımız əbədi təhlükələrə düçar olacaqdırlar”.

**II aparıcı:** Cəmiyyətin bütün sahələrində milli oyanışa, tərəqqi və inkişafa çağırış Ömər Faiq Nemanzadə publisistikasının əsas leytmotivini təşkil edir. Onun “Məzlum ən böyük zalımdır” məqaləsində müəllif insanların zülmə, istibdada, köləliyə, istismara, təhqirlərə dözməsini, susmasını tənqid obyektinə çevirir, həmvətənlərini öz hüquq və azadlıqlarını müdafiə etməyə, vətənin taleyinə biganə qalmamağa səsləyirdi. Ömər Faiq Nemanzadə türk xalqlarının gələcəyi üçün dərindən narahatlıq keçirən əsl vətənpərvər ziyalı idi. O, türk dünyasının bir ziyalısı kimi mənsub olduğu xalqın taleyini düşünürdü. Öz həmvətənlərini dünyanın azad, demokratik düşüncəli, yüksək elmə, maarifə və mədəniyyətə mənsub xalqları sırasında görmək istəyirdi. Buna görə də böyük ədib bu yüksək məfkurəli fikirlərini, arzu və istəklərini özünün “Milli məsələlərimizin vaxtımı?” adlı

məqaləsində bəyan edərək yazırdı: Rusiyada 25-30 milyon türk var, bunların ictimai-siyasi idealları olması da təbiidir. Burasını danmaq deyil, sükutla keçmək belə həm milləti, həm də hökuməti aldatmaqdır... Biz Rusiya türklərinin özümüzə görə ictimai-siyasi arzularımız var. Bu arzuları böyük və qəbul olunmayacaq bir şey sanmayınız! Biz artıq bir zad istəmiriz. İstədiyimiz budur ki, bizə də insanlıq hüququ verilsin. Biz də Rusiyanın hüquqlu təbəəsi cərgəsinə keçəlim. Ögey övlad yerində tutulmuyalım. Hökumətin ümumi qanunundan din və millət seçkiliyi olmasın, xüsusiyyəti-milliyəmizə etina edilsin... Vaxtdır ki, özümüzü tanıyalım. Vaxtdır ki, həqqi-ədalətsizliyin üzündən millətimiz "varlığının təhlükəyə düşməkdə olduğunu" qanalım.

**I aparıcı:** Ədib hər şeydən öncə mətbuatın tərəqqisinin mühüm şərtini onun milli dilə söykənməsində, ana dilinin təbliği və ziyalılar tərəfindən bu istiqamətdə mühüm addım atılmasında görürdü. Ö.F.Nemanzadə bütün ömrü boyu türk dilinin təmizliyi və saflığı uğrunda mübarizə aparıb. O, millətin və xalqın tərəqqisində dilin önəmli bir məsələ olduğunu həmişə diqqət mərkəzində saxlayır, ziyalılarımıza səslənərək xalqın anlayacağı bir dildə yazmağın vacibliyini ön plana çəkirdi. Ədibin dil məsələsinə olduqca həssas və milli təəssübkeşliklə yanaşması bütövlükdə həm də "Molla Nəsrəddin" jurnalının ana dili ilə bağlı əsas ideoloji mübarizəsini özündə əks etdirirdi.

"Müstəqil dil və ədəbiyyatı olmayan bir millətin siyasi istiqlalı da sağlam ola bilməz"- deyən Ö.F.Nemanzadənin yaradıcılığında ana dilinin qorunması, onun varlığının əbədiliyi prioritet mövzulardandır. O, doğma dilə olan sonsuz sevgisini "Eşq və məhəbbət" adlı məqaləsində yana-yana izhar edərək yazırdı: "Mən inanmıram ki, dilini sevməyən millətini sevsin. Çünki dil millətin tək nişanıdır, millət

sevgisinin birinci əlamətidir. Dilini sevməyənin ürəyində millətpərvərlik duyğusu aramaq istiotdan bal dadı gözləməyə oxşar. Milli dilində danışmaq istəməyənin millətpərvərlikdən dəm vurması yalançılığın təzə modasından özgə bir şey ola bilməz. Mənə deyirlər ki, öz dili, öz ədəbiyyatı olmayan millət öz varlığından danışmağa utanmalıdır... Bir rum ilə erməninin türkcədən özgə dil ilə danışdıqlarını görməzsiniz. Halbuki bizim bəzi ağalar dilimizin çətinliyini bəhanə edib evdə arvad-uşaq ilə də özgə dil ilə danışmaq xəyalında bulunurlar. Tiflisdə beş ziyalı bir araya gələndə görməzsiniz ki, öz dili ilə danışsın... Nə edim ki, bizi millət məhəbbətindən geri qoyan səbəblərin biri də dilimizdir. Daha doğrusu, dilsizliyimizdir... Bu gün bu yazılarımla ancaq qısaca yada salmaq istəyirəm ki, millətimizi sevmək üçün ən irəli dilimizi sevməliyik. Həm də elə eşq və məhəbbətlə sevməliyik ki, heç bir şey ona əngəl ola bilməsin”.

“Molla Nəsrəddin” jurnalının əsas mövzularından olan qadın azadlığı problemi Ömər Faiq Nemanzadənin yaradıcılığında xüsusi yer tuturdu. Onun jurnalın 1907-ci ilin 19-cu sayında “Dərdmənd” imzası ilə dərc etdirdiyi “Xortdana məktub” felyetonu geriliyə, cəhalətə, köhnə adət-ənənələrə, qadın heysiyyətinin tapdanmasının tənqidinə həsr olunmuş maraqlı və düşündürücü publisistik nümunələrdəndir. Ədibin “Bir neçə günlüyə” adlı felyetonunda da qadın azadlığı problemi aktual bir məsələ kimi davam etdirilir. Ömər Faiq Nemanzadə şəriət qanunlarını düzgün anlamayan, onu kobudcasına pozub saxtakarlığa yol verən yalançı vaizləri, “saqqalı qırmızı, beyni sarı” mollaları tənqid hədəfinə çevirirdi. O, mənəvi-əxlaqi dəyərlərə yabançı münasibət bəsləyən fırıldaqçıları ifşa edərək yazırdı: “Biz Molla Nəsrəddinik. Bizim peşəmiz ilan-qurbağaya sataşmaqdır, biz dərd edirik ki, nə səbəb bizim millətimiz insaniyyətdən,

mərifətdən, namus və qeyrətdən, dindən və şəriətdən bu dərəcə kənara düşüblər”.

**II aparıcı:** Ömər Faiq Nemanzadənin publisistikasında, eləcə də “Molla Nəsrəddin"in üslubuna xas olan, dövrün müxtəlif problemlərini özündə əks etdirən, çoxsaylı məsələləri ehtiva edən məqalə və felyetonlarında orijinal ifadə tərzi, bədii, yumoristik və sarkastik forma və struktur özəllikləri bütün incəlikləri ilə diqqəti cəlb edir. Onun publisistikasında Çar Rusiyasının xalqlar arasında ayrı-seçkilik salması, milli qırğın törətməsi kimi mənfi halların ifşasına həsr etdiyi yazılar da önəmli yer tutur. Bəzən C.Məmmədquluzadə Ömər Faiqin kəskin xarakterli yazılarının ciddi senzura təpkisinə məruz qalacağını və jurnalın bağlanmaq təhlükəsi ilə yenidən üzləşəcəyini göz önünə alaraq, mətnlərdə nisbətən dəyişikliklər etməsini, mövqeyini yumşaltmasını məsləhət görürdü. Məhz bu səbəbdən “İt it ilə boğuşar, hökumətin işi rast gələr” satirik məsəlinə düzəliş edərək jurnalda “At at ilə boğuşar, hökumətin işi rast gələr” şəklində dərc etmişlər. Və yaxud “Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri erməni və müsəlmanlara ucuz qiymətə silah satırlar” fikrindəki siyasi motivi dəyişərək bu şəkildə ifadə etmişlər: “Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olurdular ki, təbiblər onların çölə çıxmasını rəva görmürdülər”.

Səhhətində yaranan problemlə bağlı Ömər Faiq Nemanzadə 1912-ci ildən 1915-ci ilə qədər mətbuatda çıxış etmir. Nəhayət, mətbuat aləminə qayıdanda bu zaman artıq dünyada böyük dövlətlərin iştirakı ilə Birinci Dünya müharibəsi gedirdi. Bəşəriyyəti qan gölündə boğduran bu savaşda milyonlarla insan qətlə yetirilmiş, dünya məhv

olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Dünyada gedən bu mürəkkəb proseslərə bir vətəndaş yanğısıyla münasibət bildirən Ömər Faiq Nemanzadə haqqında “İqbal” qəzeti 1915- ci ilin 19 yanvar tarixli sayında belə bir məlumat vermişdi: "Bir çox zamandan bəri, mətəəssüf, mətbuat səhifələrindən uzaq düşmək məcburiyyətində qalan ötgün qələm arkadaşlarımızdan möhtərəm Ömər Faiq əfəndi arkadaşımız hərbzədə müsəlmanların düçar olduqları fəlakət qarşısında artıq susamamış, aşağıdakı mütəəssər məqalə ilə bərabər, 25 manat ianə göndərmişdir ki, açdığımız dəftərə qeyd edəlim". “İqbal” qəzeti 20 Yanvar tarixli “Ömər Faiq əfəndi” adlı məqalədə ədibin “İrşad”, “Tərəqqi”, “Şərqi-Rus” qəzetlərində və “Molla Nəsrəddin” jurnalında dərc etdirdiyi maraqlı və dəyərli məqalələrindən söhbət açır. Ö.F.Nemanzadənin bu sahədəki xidmətləri təqdir edilir və “Molla Nəsrəddin” jurnalındakı fəaliyyətinə xüsusi yer verilir. Bütün həyatı boyu xalqının taleyini düşünən Ömər Faiq Nemanzadə narahat bir ziyalı ömrü yaşayıb.

1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti qurulanda Ö.F.Nemanzadə doğma yurdu Ahısqada türklərin azadlıq mübarizəsinin önündə getmiş və üç dəfə həbs edilmişdi. 1918-ci il fevralın 18-də gürcü menşevik parlamentinin iclası Ö.F.Nemanzadə məsələsini müzakirə edərək həbsdən azad etməyə məcbur olmuşdu. Ö.F.Nemanzadə Bakıya gəlmiş və Azərbaycan Xalq Cümhuriyyətinin polis idarəsində nəzarətçi müfəttiş vəzifəsində çalışmışdı.

**I aparıcı:** Ö.F.Nemanzadə ömrünün son illərini xa-tirələr üzərində işləmiş və XIX əsrin səksəninci illərindən başlayaraq 1906-cı ilə qədər olan dövrü tamamlaya bilmişdir. Təəssüf ki, xatirələrini başa çatdırmaq ona nəsib olmayıb. 1937-ci ilin 16 iyulunda ata yurdu Axalsıxda (Gürcüstan) dincələrkən rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs

olunub və üç aydan sonra, oktyabrın 10-da Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki "Üçlüyün" qərarı ilə güllələnib. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və Azərbaycanın minlərlə ziyalısı kimi, Ömər Faiq Nemanzadə də repressiyanın günahsız qurbanına çevrilib. 1958-ci ildə ona bəraət verilib, böyük ədibin onsuz da qəlblərdə yaşayan zəngin ədəbi irsi yenidən xalqımıza qaytarılıb.

Türk xalqlarının ictimai-siyasi və ədəbi-mədəni həyatında, azadlıq, istiqlal, milli oyanış və tərəqqisində müstəsna rol oynayan, çoxşaxəli yaradıcılığı ilə Azərbaycanda mətbuat və ədəbiyyatın inkişafına böyük töhfələr verən, "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcılarından və fəal üzvlərindən biri kimi xalqımıza təmənnasız xidmət göstərən Ömər Faiq Nemanzadə bütöv şəxsiyyəti və təkrarsız yaradıcılığı ilə ədəbiyyat və mətbuatımızın zirvəsində əbədi yaşayacaq.

**F.Köçərli adına RUK-nın Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı:**

Kitabları

Nemanzadə Ö. F. Xatirələrim. - Bakı : XAN, 2014. - 152 s.

Nemanzadə Ö. F. Xatirələrim. - Bakı : XAN, 2015. - 167 s.

Məqalələri dövrü mətbuatda

Nemanzadə Ö. F. Mən kiməm? : Azərbaycan Respublikasının Prezidenti 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyəti ili elan etmişdir // 525-ci qəzet. - 2018. - 10 fevral. - № 27. - S. 28-29.

Nemanzadə Ö. F. Nə etməliyik? // 525-ci qəzet. - 2021. - 26 iyun. - № 112. - S. 10-11.

Haqqında dövrü mətbuatda

Əbdülsəlimzadə Q. "Molla Nəsrəddin" jurnalında sosial - iqtisadi məsələlər // Xalq qəzeti. - 2006. - 6 aprel. - S. 6.

Turan A. Sonuncu çıraq : Ömər Faiq Nemanzadənin qızı Bəxti Nemanzadə haqqında // Ədəbiyyat qəzeti. - 2008. - 23 may. - S. 6.

Ömər Faiq Nemanzadə : Tariximizi yazanlar // Göy qurşağı. - 2008. - № 6. - S. 6.

Cəfərov T. 1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə : Ədibin "Qafqazdan İstanbula xatirələr" əsəri azərbaycanlıların soyqırımının tarixçəsi kimi səslənir // Xalq qəzeti. - 2010. - 14 mart. - N 58. - S. 4.

Cəfərova E. Abbas Zamanov və "Molla Nəsrəddin"çilər // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 1. - S. 66-69.

Rzalı R. Ömər Faiq Nemanzadə: "Millət hürriyyətin və istiqlalın ləzzətini yalnız öz milli dilində anlaya bilər" // Azərbaycan. - 2012. - 22 iyul. - № 161. - S. 5.

Turalı Q. Anasına qulaq asaydı, Molla Ömər olacaqdı : Ömər Faiq Nemanzadə haqqında // Hüquqi dövlət və qanun : Elmi-nəzəri, təcrübi aylıq jurnal. - 2013. - N 3. - S. 63-64.

Fərəcov S. Mübariz publisistin ömür yolu : Azərbaycan maarifçilik hərəkatının və mətbu fikrinin inkişafında görkəmli publisist və ictimai xadim Ömər Faiq Nemanzadə haqqında // Mədəniyyət. - 2014. - № 31.

Qaraca B. O, istəyirdi güllər açılsın : XX əsr Azərbaycan şairi və jurnalist Ömər Faiq Nemanzadə : Qərib məzarlar // Azərbaycan : qəzet. - 2015. - 16 oktyabr. - № 225. - S. 7.

Vahabova S. Ömər Faiq Nemanzadə // Azərbaycan : jurnal. - 2016. - № 1. - S. 199-205.

Əliyeva İ. Söz fədaisi, mətbuat cəfakeşi : Ömər Faiq Nemanzadə : Azərbaycan Milli Mətbuatı - 141 // Azərbaycan : qəzet. - 2016. - 22 iyul. - № 156. - S. 5.

Əliyeva İ. Oxşar talelər : Azərbaycan Milli Mətbuatı 142 : "Azərbaycan"ın yazarları // Azərbaycan : qəzet. - 2017. - 22 iyul. - № 156. - S. 6.

Ömərov V. Ömər Faiq Nemanzadə qadın hüquqları haqqında // Səs. - 2018. - 12 oktyabr. - № 193. - S. 15.

Turan A. Bəxtli bu dünyadan bəxtsiz getdi : Ömər Faiq Nemanzadənin qızı haqqında // Ədəbiyyat qəzeti. - 2019. - 22 iyun. - № 21. - S. 16-17.

Ömər Faiq Nemanzadənin həyatı, ədəbi irsi dərindən tədqiq olunmalıdır : Ülvi Pepinovayla musahibə / söhbətləşdi M. Mirzə // Respublika. - 2019. - 6 avqust. - № 169. - S. 5.

Fərəcova Z. "İrşad" qəzetində bədii tərcümə məsələləri // Azərbaycan : jurnal. - 2019. - № 7/8. - S. 180-184.

Anar. "Yaşamaq haqqı" traktatından fəsillər // Azərbaycan : jurnal. - 2019. - № 9. - S. 50-63.

Səlimov Ş. Ömər Faiq Nemanzadənin naməlum məktubları : Azərbaycan Cümhuriyyəti - 102 // Mədəniyyət : jurnal. - 2020. - № iyul-Avqust. - S. 6-11.

Kamaloğlu Y. Ömər Faiq Nemanzadənin həmrəylik və yardımlaşma harayı // Füyuzat. - 2020. - № 2(112). - S. 14-18.

Hüseynova Ü. Tarixin ibrət səhifələri // Yada düşdü. - 2021. - № 2(43). - S. 41-45.

Babayeva G. Ömər Faiq Nemanzadə və Molla Nəsrəddin jurnalı // 525-ci qəzet. - 2022. - 14 iyul. - № 121. - S. 12.

# Zəmanəsinin fövqünə qalxmış–Nemanzadə

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**